3 may 2023 №33 (2002)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azad torpaqlarda quruculuq işləri genişlənir

### Prezident və birinci xanımın iştirakı ilə Ağdamda yeni tikililərin təməli qoyulub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər.

Dövlətimizin başçısı "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verib.

Mərkəzin binasının birinci mərtəbəsində kafe, kinozal, kitabxana, 637 yerlik konsert və iki rəqs zalının yaradılması nəzərdə tutulur. İkinci mərtəbədə inzibati otaqlar olacaq. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı yaradılacaq, ərazisində isə min kvadratmetrlik açıq amfiteatr inşa ediləcək.

Qədim və zəngin mədəniyyətimizin vizit kartı muğam, eyni zamanda xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, mənəvi və ruhi qidasıdır. Muğamın təbliğinə son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"nda yer alıb. Bu istiqamətdə son illərdə görülən işlərdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mühüm



xidmətləri var. Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun silsilə layihələri milli muğam sənətinin təbliği, tədqiqi, tədrisi və dünyada daha geniş tanınmasına mühüm zəmin yaradır.

Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından son dövrlərdə yaradılan muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var. Milli musiqi mədəniyyətinə görkəmli ifaçılar bəxş etmiş Ağdamda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə dirçəldilməsi istiqamətində ardıcıl işlərin göründüyünü göstərir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva daha sonra Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, Ağdam şəhərində inzibati binanın təməlini qoyublar.

Dövlətimizin başçısı səfər zamanı Bərdə-Ağdam dəmiryolu xəttinin tikintisi ilə də tanış olub.

Prezidentin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə inşa olunan dəmiryolu xəttinin tikintisinin 2023-cü ildə başa çatdırılması nəzərdə tutulur. Uzunluğu 47,1 kilometr (yan yolları ilə birlikdə 57 kilometr) olan yol təkxətlidir. Yol boyunca Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyaları fəaliyyət göstərəcək.

## "Türkiyə və Azərbaycan bir millət, iki dövlət və bir yumruqdur"

Bir neçə gündən sonra Azərbaycan xalqı çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".

Prezident İlham Əliyev bu sözləri aprelin 29-da İstanbulda deyib. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında iştirak ediblər.

səh. 2

## "Mədəniyyətlərarası dialoq və etnik özünəməxsusluq"




Mayın 5-6-da Azərbaycan Milli Xalça Muzeyində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Mədəniyyətlərarası dialoq və etnik özünəməxsusluq" adlı beynəlxalq elmi konfrans keçiriləcək.

Konfrans Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin təşkilatçılığı, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və Bakı Yunus Əmrə İnstitutunun dəstəyi ilə gerçəkləşəcək.

səh. 2

## Bakıda "Moskva Günləri"

3-5 may tarixlərində Bakıda "Moskva Günləri" keçiriləcək. Rusiya İnformasiya-Mədəniyyət Mərkəzindən (Bakıdakı Rus Evi) verilən məlumata görə, proqrama sərgilər, konsertlər, yaradıcılıq görüşləri və başqa mədəni tədbirlər daxildir.

"Moskva Günləri" çərçivəsində Azərbaycan Dillər Universitetində "Müasir pyes məktəbi" teatrının rəhbəri, teatr və kino rejissoru, aktyor Dmitri Astraxan ilə yaradıcılıq görüşü olacaq.

Heydər Əliyev Mərkəzində Rusiya Coğrafiya Cəmiyyətinin "Bakı ilk səyyahların obyektivində" adlı sərgisi, həmçinin "Turetskinin xoru" art-qrupu və "Soprano" qrupunun konserti keçiriləcək.

Beynəlxalq Muğam Mərkəzində məşhur şahmatçı, dünya çempionu Anatoli Karpovun iştirakı ilə Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş şahmat turniri təşkil ediləcək.

Mədəni tədbirlər çərçivəsində S.Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında "Müasir pyes məktəbi" teatrının "Ay işığında" tamaşası da nümayiş etdiriləcək.

Tədbirin üçüncü günündə "Moskva-Bakı: iki paytaxt arasında dialoq" konfransı, yazıçı Yuri Polyakov və Rusiyanın Xalq artisti Yelena Sanayeva ilə görüşlərin keçirilməsi nəzərdə tutulur.

## "Qayınana" Özbəkistan Dövlət Musiqili Teatrının səhnəsində

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə Muqimi adına Özbəkistan Dövlət Musiqili Teatrında Azərbaycan teatr və kinematoqrafiyasının şah əsərlərindən sayılan "Qayınana" komediyasının premyerası olub.

Nümayişdən öncə səhnəyə çıxan AMM-in direktoru Samir Abbasov "Qayınana" komediyası haqqında məlumat verib, bu əsər əsasında çəkilmiş filmin təkcə Azərbaycanda deyil, Özbəkistanda da çox məşhur olduğunu qeyd edib. Direktor səhnə əsərinin AMM ilə Muqimi adına teatr arasında uğurlu əməkdaşlıq nəticəsində ərsəyə gəldiyini diqqətə çatdırıb.

Özbəkistan Dövlət Musiqili Teatrının direktoru Özbəkistan



və Qazaxıstanın Əməkdar artisti Azim Mullaxanov əməkdaşlıq və diqqətə görə Azərbaycan Mədəniyyət Mərkəzinə təşəkkürünü bildirib. O, bundan sonra da əməkdaşlığın davam etdiriləcəyinə əmin olduğunu deyib.

Sonra tamaşa nümayiş olunub.

Böyük maraqla qarşılanan səhnə əsərinə Özbəkistan Dövlət Musiqili Teatrının baş rejissoru Dastan Xaqberdiyev quruluş verib. Tamaşanın musiqi tərtibatçısı Karima Uzakova, dirijoru Akmal Turayevdir.

Qayınana (Cənnət) obrazını Özbəkistanın Əməkdar artisti Məhəbbət Sotvaldiyeva canlandırıb, digər rollarda Qulasal Rahmanova, Omon Yuldaşev, Arofat Erqaşova, Ravşan İbraqimov, Özbəkistanın Xalq artisti Mexri Bekçanova, Bazarbek Xolmuminova, Zilola Abdullayeva çıxış edirlər.

davamı səh. 2-də

## Milli Muğam Müsabiqəsi başa çatıb

Xəbər verdiyimiz kimi, 24-26 aprel tarixlərində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının (AMK) dəstəyi ilə Milli Muğam Müsabiqəsi keçirilib.




AMK-da keçirilən müsabiqə xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə iki turdan ibarət olub. İnstrumental ifaçılıq üzrə münsiflər heyətinin sədri AMK-nın rektoru Xalq artisti Siyavuş Kərimi, üzvləri Xalq artistləri Fəxrəddin Dadaşov, Möhlət Müslümov, Əməkdar artistlər Şirzad Fətəliyev və Çinarə Heydərova olub. Xanəndəlik üzrə iştirakçıları AMK-nın rektoru Siyavuş Kərimi (sədr) və Xalq artistləri Səkinə İsmayılova, Mənsum İbrahimov, Zabit Nəbizadə və Əməkdar artist Qəzənfər Abbasovdan ibarət münsiflər qiymətləndiriblər.

Aprelin 30-da müsabiqənin qaliblərinin adı açıqlanıb, mükafatlandırma mərasimi və yekun konsert keçirilib.

davamı səh. 5-də

## Laçın-Xankəndi yolundakı sərhəd-buraxılış məntəqəsindən sərbəst keçid təmin olunub

Azərbaycanın Laçın rayonunda, Laçın-Xankəndi yolunun başlanğıcında aprelin 23-də qurulan sərhəd-buraxılış məntəqəsindən insanların və avtomobillərin sərbəst keçidi təmin olunub.

Nəzarət-buraxılış məntəqəsində xidmətlə bağlı yayılan kadrlardan göründüyü kimi, vətəndaşların sərhədi keçməsi qaydalara uyğun olaraq, nizam-intizamla və nəzakətli şəkildə təşkil edilir. Azərbaycan sərhədçiləri vəzifələrinin icrasında yüksək peşəkarlıq nümayiş etdirirlər.



Beləliklə, Ermənistan rəsmilərinin Laçın yolunun "blokada"sı ilə bağlı iddiaları növbəti yalan təbliğatdan başqa bir şey deyil. Sərhəd-keçid məntəqəsində təhlükəsizliyə və hərəkətə nəzarət tam təmin edilib, insanların qayda-qanun çərçivəsində sərhədi keçməsi ilə bağlı heç bir problem müşahidə olunmur.

Bu, bir daha göstərir ki, Azərbaycanın sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratmasının məqsədi heç də Ermənistan tərəfinin iddia etdiyi kimi, hərəkəti məhdudlaşdırmaq deyil, əksinə, Laçın-Xankəndi yolunda avtomobillərin və insanların təhlükəsiz hərəkətini təmin etmək, ölkəmizin ərazisinə qeyri-qanuni daşımaların qarşısını almaqdır.

## Aftandil İsrafilov dünyadan köçdü



Tanınmış qarmon ifaçısı, Xalq artisti, "Şöhrət" ordenli Aftandil İsrafilov aprelin 29-da, ömrünün 83-cü ilində vəfat edib.

Ustad qarmon ifaçısı SSRİ Xalq artisti Zeynəb Xanlarovanın ansamblının tərkibində dünyanın dörd bir yanında Azərbaycan musiqisinin təbliği ilə bağlı silsilə konsertlərdə çıxış edib. O, həmçinin dinləyicilərin böyük rəğbətini qazanmış onlarla melodiyanın da müəllifidir. Sənətkar könülləri oxşadığı ritmik qarmon melodiyalarından birinin – "Kəmalə" rəqsinin sədaları ilə son mənzilə yola salınıb.

səh. 6

### Xədicə Qayıbovanın 130 illiyinə həsr olunan gecə



səh. 3

### Mədəniyyət naziri "Azərbaycanfilm" kinostudiyasının vəziyyəti və Dövlət Film Fondunun fəaliyyəti ilə tanış olub

səh. 3



### Bakı Xoreoqrafiya Akademiyasının buraxılış-hesabat konserti

səh. 5

## "Türkiyə və Azərbaycan bir millət, iki dövlət və bir yumruqdur"

Bir neçə gündən sonra Azərbaycan xalqı çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".



Prezident İlham Əliyev bu sözləri aprelin 29-da İstanbulda deyib.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında iştirak ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qardaş ölkənin texnoloji inkişafının daha bir göstəricisi olan "Togg" avtomobili ilə festivalın keçirildiyi məkana gəliblər.

Mərasimdə çıxış edən İlham Əliyev ötən il "TEKNOFEST" festivalının Bakıda uğurla keçirildiyini və Türkiyə dövlət başçısının da tədbirə qatıldığını xatırladıb: "Bu gün mən buradayam. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir.

Eyni zamanda iki il bundan öncə Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. O tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi...".

Prezident İlham Əliyev vurğulayıb ki, Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçib: "Türkiyə dünya çapında söz sahibinə çevrilib, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır...".

## "Mədəniyyətlərarası dialoq və etnik özünəməxsusluq"

### Beynəlxalq elmi konfrans keçiriləcək

Mayın 5-6-da Azərbaycan Milli Xalça Muzeyində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Mədəniyyətlərarası dialoq və etnik özünəməxsusluq" adlı beynəlxalq elmi konfrans keçiriləcək.

Konfrans Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin təşkilatçılığı, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və Bakı Yunus Əmrə İnstitutunun dəstəyi ilə gerçəkləşəcək.

Çağdaş dünyada hər bir xalqın mədəni özünəməxsusluğunu, milli-mənəvi dəyərlər sistemini, maddi irsini, tarixi yaddaşını qoruması qarşıda duran mühüm vəzifələrdəndir. Görkəmli dövlət xadimi Heydər Əliyev bu sahədə, o cümlədən Azərbaycan xalqının milli kimliyinin mühafizəsi, adət-ənənələrinin yaşadılmasında muzeylərin rolunu nəzərə alaraq onların inkişafı istiqamətində mühüm işlər görüb.

Konfransda "Ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərin dirçəldilməsində rolu", "Etnik müxtəliflik və mədəniyyətlərarası dialoq", "Xalq sənətkarlığının dirçəlməsində etnoqrafik muzeylərin rolu", "Qloballaşma dövründə etnik mədəniyyətin əksi", "Lokal etnik qrupların ənənəvi mərasim mədəniyyəti" mövzularını əhatə edən məruzələr dinləniləcək, müzakirələr aparılacaq.

Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Macarıstan, Özbəkistan, Polşa, Rumıniya, Cənubi Koreya və Yaponiyadan muzey rəhbərləri və tədqiqatçılar məruzələrlə çıxış edəcəklər.

Konfransın iştirakçıları üçün mədəni proqram da nəzərdə tutulub.

## "Qayınana" Özbəkistan Dövlət Musiqili Teatrının səhnəsində

əvvəli səh. 1-də



Qeyd edək ki, yazıçı Məcid Şamxalovun 1964-cü ildə qələmə aldığı "Qayınana" pyesi 1974-cü ildə bəstəkar Zakir Bağırovun musiqi tərtibatı ilə Musiqili Komediya Teatrının (indiki Akademik Musiqili Teatr) ən populyar səhnə əsərlərindən birinə çevrilib.

"Qayınana" komediyası əsasında "Azərbaycanfilm"də çəkilmiş eyniadlı bədii film (1978, rejissor Hüseyn Seyidzadə) də milli kinomuzun ən dəyərli nümunələrindəndir. Film bir sıra ölkələrdə, o cümlədən Özbəkistanda böyük maraqla qarşılanıb. Görkəmli Azərbaycan bəstəkarı Tofiq Quliyevin filmə yazdığı musiqilər isə ekran əsərinin təsir qüvvəsini daha da artırıb. Filmin finalında səslənən "Biz mehriban ailəyik" mahnısı təkcə Azərbaycanda deyil, Özbəkistanda da böyük sevgi ilə qarşılanaraq dillər əzbərinə çevrilib.

Xatırladaq ki, "Qayınana" komediyası bundan öncə Özbəkistanın Səmərqənd vilayətində, Kattakurqon Şəhər Dram Teatrında tamaşaya qoyulub. Səhnə əsərinə Azərbaycanın Əməkdar incəsənət xadimi Əsgər Əsgərov quruluş verib. 2022-ci ilin dekabrında özbək teatrı bu tamaşa ilə Bakıda qastrol səfərində olub.

# Paytaxtımız yeddinci dəfə Formula 1 Qran-Prisinə ev sahibliyi etdi

### Serxio Peres ikinci dəfə "Bakı şəhər halqası"nda qalibiyyət qazandı...

Aprelin 30-da Bakı şəhər halqasında Formula 1 üzrə dünya çempionatının dördüncü – Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yarışa baxıblar.

Əvvəlcə Qran-prinin açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub. Dövlət Himnini "Avroviziya-2018" müsabiqəsində Azərbaycanı təmsil edən Aysel Məmmədova səsləndirib.

Sonra Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışı başlayıb. Yarışda hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb. Pilotlar "Bakı şəhər halqası"nda iki saat ərzində 51 dövrə vurublar. "Mercedes" komandasının heyətində Luis Hamilton və Corc Rassel, "Ferrari" komandasında Karlos Sayns və Şarls Lekler, "Williams"ın heyətində Aleksander Albon və Loqan Sarjent yarışıblar. "Red Bull Racing" komandasında Serxio Peres, Maks Ferstappen, "Alpha Tauri"də Nik de Vris və Yuki Tsunoda, "Alpine"da isə Pyer Qasli ilə Esteban Okon mübarizə aparıblar. Bundan başqa, "Alfa Romeo"nun heyətində Valtteri Bottas və Cou Quanju, "McLaren"də Oskar Piastri və Lando Norris yürüşdə iştirak ediblər. Pilotlar Niko Hulkenberq və Kevin Maqnussen "Haas", Fernando Alonso və Lans Stroll "Aston Martin" komandasının idman şərəfini qoruyublar.

Formula 1 çempionatının cari mövsümü 24 mərhələdən ibarətdir. Bakı Qran-prinin dördüncü mərhələsinə ev sahibliyi edib. Uzunluğu 6 kilometr olan və hərəkətin saat əqrəbinin əksinə nizamlandığı trek almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində sona çatır. Trekin ən geniş yerinin eni 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan hissələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.



İki saata yaxın davam edən gərgin mübarizənin sonunda "Red Bull Racing" komandasının meksikalı pilotu Serxio Peres Azərbaycan Qran-Prisinin qalibi adını qazanıb. Onun komanda yoldaşı Maks Ferstappen ikinci, "Ferrari"nin sürücüsü Şarl Lakler isə üçüncü pillədə yer alıblar.

Sonra Formula 1 Azərbaycan Qran-Prisi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Qalib idmançının və komandanın şərəfinə Meksikanın və Avstriyanın Dövlət himnləri səsləndirilib.

Mükafatları pilotlara Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin icraçı direktoru Maqsud Fərzullayev təqdim ediblər.

Xatırladaq ki, Formula 1 Azərbaycan Qran-Prisinə aprelin 28-də start verilib. Azərbaycan Qran-Prisinin ilk günündə Formula 1 pilotları sərbəst yürüş və sıralanma yürüşlərində mübarizə aparıblar. Aprelin 29-da sprint üçün təsnifat və sprint yarışları təşkil olunub.

Builki dünya çempionatına martın 3-5-də Bəhreyn Qran-Prisi ilə start verilib. Sonrakı mərhələlər Səudiyyə Ərəbistanında və Avstraliyada keçirilib.

Beləliklə, 4 Qran-pridən sonra pilotların siyahısına "Red Bull Racing" komandasının niderlandlı sürücüsü Maks Ferstappen başçılıq edir. Onun aktivində 93 xal var.

Azərbaycan Formula 1 yarışlarına yeddinci dəfədir ev sahibliyi edib. 2016-cı ildə təşkil olunan ilk yarışda "Mercedes" komandasının pilotu Niko Rosberq qalib olub. Sonrakı illərdə yarışlarda Daniel Rikkardo ("Red Bull Racing", 2017), Luis Hamilton ("Mercedes", 2018), Valtteri Bottas ("Mercedes", 2019), Serxio Peres ("Red Bull Racing", 2021), Maks Ferstappen ("Red Bull Racing", 2022) qalib gəliblər. 2020-ci ildə Formula 1 Azərbaycan Qran-Prisi koronavirus pandemiyası səbəbindən keçirilməyib.

# Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə

### 30-dan çox ölkə nümayəndələrinin iştirakı ilə müzakirə olunub

Mayın 2-də ADA Universitetində 30-dan çox ölkənin 60-dək nümayəndəsinin iştirakı ilə "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfrans keçirilib.




Konfransın ilk sessiyası ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilib. O vurğulayıb ki, tədbir Avrasiya regionunda gələcək tendensiyaların müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır.

ADA Universitetinin rektoru professor Hafiz Paşayev çıxışında bildirib ki, tədris ocağı artıq 4-cü dəfə belə bir konfransa ev sahibliyi edir. Burada bildirilən fikirlər daha sonra dünyanın bir çox ölkələrində məqalələr şəklində jurnallarda işıqlandırılır.

Rektor vurğulayıb ki, Ulu öndər Heydər Əliyev geosiyasət sahəsində mühüm addımlar atmış şəxsiyyət idi. O, Sovet İttifaqında siyasi yüksəkliklərə çatan yeganə azərbaycanlı idi. 1990-cı illərdə Azərbaycan böhranın ortasında idi. Müharibə, torpaqlarımızın Ermənistan tərəfindən işğalı, iqtisadi böhran – məhz bu şəraitdə Heydər Əliyev ölkəni idarə etməyə başlayıb. Ümummilli lider hakimiyyətə gəldikdən sonra müharibə dayandırılıb, iqtisadiyyat sabitləşdirilib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyası İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin əhəmiyyətindən, Bakı-Tbilisi-Ceyhan layihəsindən və Azərbaycanın təşəbbüskarı olduğu nəhəng nəqliyyat dəhlizləri layihələrinin önəmindən bəhs edib. Deyib ki, ötən müddətdə ölkəmizə 300 milyard dollara yaxın investisiya qoyulub. Azərbaycan alternativ enerji resurslarını paylaşan ölkədən tranzit ölkəyə çevrilib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, ölkəmiz bir çox beynəlxalq, əsasən də nəqliyyat və tranzit sahələrə aid layihələrin təşəbbüskarı olub. Hazırda dünyada baş verən hadisələr, müharibələr alternativ tranzit yollarına ehtiyacın olduğunu bir daha göstərir, bu da Azərbaycanın irəli sürdüyü Orta Dəhlizin əhəmiyyətini artırır.

Konfransın ikinci sessiyası ABŞ Hərbi Dəniz Donanması Ali Məktəbinin nümayəndəsi Brenda Şafferin moderatorluğu ilə keçirilib.

ABŞ-nin Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri Mətyu Brayzə, Özbəkistan Ali Məclisinin Senatı sədrinin birinci müavini Sadıq Safayev, Gürcüstanın ABŞ və Kanadada sabiq səfiri Tedo Caparidze, Şanxay Əməkdaşlıq Təşkilatının sabiq baş katibi Bolat Nurqaliyev və ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə katibinin köməkçisinin keçmiş müavini David Merkel çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, gənc Azərbaycan dövlətini xaos dolu illərdən çıxararaq ayağa qaldırmaqla Heydər Əliyev tarixi xidmətlər göstərib. Onun təməlini qoyduğu siyasət sayəsində Azərbaycan regionun strateji mövqeli dövlətinə çevrilib.

# İrəvan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyana qədər...

### "The Wall Street Journal": Amerika Ermənistanı sülhə sövq edə bilər

ABŞ-nin nüfuzlu "The Wall Street Journal" nəşrinin dərc etdiyi məqalədə qeyd olunur ki, İrəvan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyana qədər Ermənistanla Azərbaycan arasında münaqişə bitməyəcək.

Məqalədə Azərbaycanın neft və qaz tədarük etdiyi Avropa ilə möhkəm iqtisadi əlaqələr saxladığı, eyni zamanda Türkiyə və İsraillə də müdafiə sahəsində möhkəmləndirilmiş əməkdaşlığı möhkəmlətdiyi vurğulanır. Bildirilir ki, bu əlaqələr Azərbaycan hərbçilərinə öz gücünü qeyri-adi sürətlə artırmağa kömək edib. İkinci Qarabağ müharibəsində onların nümayiş etdirdikləri güc həm Moskvada, həm də Tehranda təcrübəli mütəxəssislərin çoxunu heyrətə gətirib.

Qeyd olunur ki, Azərbaycan həm Rusiya, həm də İranla həmsərhəd olan yeganə ölkədir. Onun Türkiyə və İsraillə üçtərəfli əməkdaşlığı Tehranı daha çox narahat edir. İran İslam Respublikası əhalisinin azı üçdəbir hissəsini təşkil edən və fars mənşəli olmayan iri etnik qruplardan biri olan cənubi azərbaycanlılar da İran rejimini qorxudur. Beləliklə, Tehran Moskva və İrəvanla Türkiyə-İsrail-Azərbaycan qrupunu tarazlaşdırmaq məqsədi daşıyan üçtərəfli vektor üzrə fəaliyyət göstərir. Nəşr vurğulayır ki, bu vektora öz hərəkətləri ilə Ermənistanın xeyrinə çalışan Fransa Prezidenti Emmanuel Makron dolayı yolla kömək edir.

"The Wall Street Journal" xatırladır ki, Fransada böyük erməni diasporu yaşayır. Onun təsiri və Makronun beynəlxalq arenada ekssentrik təşəbbüslərə meyilliliyi sayəsində Parisin tutduğu mövqe bütövlükdə Rusiya və İranın Cənubi Qafqazda nüfuzunu gücləndirir. Ötən ilin noyabrında Paris özünü Şarl Mişelin rəhbərliyi altında Avropa vasitəçiliyinin iştirakçısı rolunda görürdü. Makron Şarl Mişelə (Avropa İttifaqının rəhbəri – red.) təzyiq göstərib ki, onu da Azərbaycanla Ermənistan arasında danışıqlara dəvət etsin. Bu da Avropa vasitəçiliyinin "Bakının gözündə qeyri-legitim" olmasına gətirib çıxarıb.

"Blinken (ABŞ dövlət katibi – red.) indi etiraf edir ki, Amerika yolu Ermənistanı sülhə sövq etmək və bununla da Rusiya-İran alyansı ilə əməkdaşlıq formasını məhdudlaşdırmaq üçün həyat qabiliyyətli yeganə yoldur", – deyə yazıda bildirilir.

Qeyd edək ki, mayın 1-də ABŞ-nin paytaxtı Vaşinqtonda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, ABŞ-nin dövlət katibi Entoni Blinken və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilib. Mayın 2-də Azərbaycan və Ermənistan XİN rəhbərlərinin danışıqları başlayıb. ABŞ-nin ev sahibliyi ilə danışıqların bir neçə gün davam edəcəyi gözlənilir.

# Həzin musiqilərlə yad edilib

## Heydər Əliyev Mərkəzində akademik Zərifə Əliyevanın 100 illiyi münasibətilə konsert keçirilib






Aprelin 28-də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın (1923–1985) anadan olmasının 100-cü ildönümü tamam oldu.

Bu münasibətlə Heydər Əliyev Mərkəzində akademik Zərifə Əliyevanın xatirəsinə həsr edilmiş konsert proqramı təqdim edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva tədbirdə iştirak ediblər.

Konsertdən əvvəl görkəmli alim, həkim, Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən fotosərgiyə baxış keçirilib.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hazırlanan konsert akademik Zərifə Əliyeva haqqında filmin nümayişi ilə başlayıb.

Sonra səhnə əfsanəvi "Dan ulduzu" instrumental ansamblının ixtiyarına verilib. Konsertdə ansamblın repertuarından sevilən mahnılar ifa olunub. Proqramda Elza İbrahimova, Emin Sabitoğlu, Firəngiz Babayeva, İbrahim Topçubaşov, Oqtay Kazımi, Sevil Əliyeva və Tofiq Əhmədovun mahnıları, "Dan ulduzu" instrumental ansamblının yaradıcısı Gülarə Əliyevanın "Şüştər" muğamı əsasında yazdığı "Şüştər" rapsodiyası yer alıb.

Zalda quraşdırılan ekranlarda akademik Zərifə Əliyeva haqqında, "Dan ulduzu" ansamblının çıxışlarını, ötən illərin və müasir dövrün Azərbaycanını əks etdirən kadrlar yayımlanıb.

Konsert bəstəkar Emin Sabitoğlunun "Nə gözəldir Azərbaycan" mahnısının bütün müğənnilər tərəfindən birgə ifa olunması ilə yekunlaşıb.

# Mədəniyyət naziri dövlət kino təsisatlarının vəziyyəti ilə tanış olub





Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli aprelin 27-də Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında olub.

"Azərbaycanfilm"in direktoru Nazim Hüseynov naziri kinostudiyanın ərazisi, inzibati binalardakı şəraitlə tanış edib.

Müəssisəyə baxış zamanı fəaliyyətin günün tələbləri səviyyəsində qurulması ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

***

Mədəniyyət naziri Adil Kərimli daha sonra Azərbaycan Dövlət Film Fonduna baş çəkib.

Fondun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev öncə nazirə müəssisə barədə məlumat verib. Bildirib ki, Dövlət Film Fondu Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Nazirlər Kabinetinin 22 dekabr 1993-cü il tarixli sərəncamına əsasən yaradılıb. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunan "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, 2008-ci ildə Dövlət Film Fondu üçün yeni bina istifadəyə verilib.

Adil Kərimli Azərbaycan Dövlət Film Fondunun texniki avadanlıqlarla təchiz edilmiş otaqları, laboratoriya, tamaşa salonu, yardımçı otaqlar, həmçinin burada filmlərin saxlanılma və bərpa şəraiti, digər texniki imkanları ilə tanış olub.

Nazirə Dövlət Film Fondunun nəzdində fəaliyyət göstərən kino muzeyinin eksponatları haqqında geniş məlumat verilib. Diqqətə çatdırılıb ki, hər il Film Fondunda Azərbaycan kino xadimlərinə həsr olunmuş tədbirlər, yubiley və xatirə gecələri təşkil olunur, şəxsi arxiv fondları yaradılır. Fondda qorunan ümumi saxlanma vahidlərinin sayı 80 mini ötüb.

Mədəniyyət naziri Film Fondunun hazırkı dövrdə qarşılaşdığı problemlərlə də maraqlanıb və müəssisənin gələcəkdə də dövlət qayğısı ilə əhatə olunacağını vurğulayıb.

# "Türk dünyasının muzeyləri"

## TÜRKSOY Budapeştdə panel təşkil edib

Macarıstanın paytaxtı Budapeştdə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Türk dünyasının muzeyləri" adlı panel keçirilib.

Məşhur macar etnoqrafı, türk xalqları və şamanizm haqqında tədqiqatlar aparmış Dioszegi Vilmosun 100 illiyinə həsr olunmuş panelə Türk dünyasının qabaqcıl muzeylərinin rəhbərləri və aparıcı mütəxəssisləri dəvət olunub.

TÜRKSOY Muzeylər Birliyi, Türk Dövlətləri Təşkilatının Budapeştdəki nümayəndəliyi və Macarıstan Etnoqrafiya Muzeyi ilə işbirliyi çərçivəsində reallaşan toplantıda Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova da iştirak edib. O, TÜRKSOY Muzeylər Birliyinin dönəm rəhbəri kimi tədbirdə açılış nitqi ilə çıxış edib. Türk dövlətlərinin muzeyləri arasında qarşılıqlı



əlaqələrin genişləndirilməsi istiqamətində artıq ənənə halını almış bu toplantıların önəmi vurğulanıb. Macarıstanla Türk dünyası arasında tarixən mövcud olan və müasir dövrdə getdikcə güclənən qarşılıqlı mədəni əlaqələrdən söz açılıb.

Sonra panel sessiyalarla işini davam etdirib. Birinci sessiyada Şirin Məlikovanın "Muzey və ziyarətçi: əməkdaşlıq üfüqləri" adlı məruzəsi dinlənilib. Məruzədə Azərbaycan Milli Xalça Muzeyinin ziyarətçilərlə müasir tələblərə uyğun qurulmuş iş prinsiplərindən, tamaşaçılarda qədim milli irsə maraq yaradılması istiqamətində həyata keçirilən çoxsaylı mədəni, təhsil layihələrindən və bu aspektdə digər mühüm məsələlərdən bəhs olunub. Məruzə maraqla qarşılanıb və müzakirələr zamanı Şirin Məlikova ona ünvanlanan sualları cavablandırıb.

Panelə qatılan Türkiyə, Macarıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan nümayəndələri də muzey işi və etnoqrafik tədqiqatları əhatə edən məruzələrlə çıxış ediblər.

# Tbilisidə Azərbaycan və gürcü ədiblərinin kitablarının təqdimatı

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Gürcüstan Yazıçılar Birliyi ilə əməkdaşlığı çərçivəsində Tbilisidə işıq üzü görmüş Xalq yazıçısı İsa Hüseynovun "Ömür karvanı" və tanınmış gürcü şairi David Şemokmedelinin Bakıda nəşr olunmuş "Astananın iki üzü" kitablarının təqdimat mərasimi keçirilib.

Mərkəzdən bildirilib ki, tədbiri Gürcüstan Elmlər Akademiyasının akademiki Avtandil Arabuli açaraq hər iki kitabın nəşrini Azərbaycan-Gürcüstan ədəbi-mədəni əlaqələrinə böyük töhfə kimi dəyərləndirib.

Tədbirdə iştirak edən şair və yazıçılar, gürcü ictimaiyyətinin tanınmış nümayəndələri kitablarla bağlı fikirlərini bölüşüblər.

Gürcüstan Yazıçılar Birliyinin sədri şair Makvala Qonaşvili İsa Muğannanın gürcü dilində irihəcmli kitabının Azərbaycan Dövlət Tərcümə Mərkəzi ilə müştərək layihə kimi ərsəyə gəldiyini diqqətə çatdırıb: "Kitabın redaktoru kimi deyərdim ki, tərcümə mətninin dili məni çox qane etdi, oxucuda elə təsəvvür yaranır ki, əsərlər sanki gürcü dilində yazılıb".

Qeyd edək ki, Gürcüstan Yazıçılar Birliyinin "Merani" nəşriyyatında çap edilən kitaba yazıçının "Saz", "Quru budaq", "Şəppəli", "İllər və damcılar", "Aynalı Əhəd", "İki xırman", "Zəhər" kimi povest və hekayələri daxil edilib. Əsərləri gürcü dilinə tanınmış yazıçı-tərcüməçi İmir Məmmədli çevirib.

Azərbaycan Dövlət Tərcümə Mərkəzi İdarə Heyətinin sədri Xalq yazıçısı Afaq Məsud deyib: "Gürcü həmkarlarımıza belə nəfis nəşrə görə öz minnətdarlığımı bildirirəm. İsa Muğanna 50-ci illərdə ədəbiyyata gəldi və o dövrdə sosialist realizmini deyil, insani dəyərləri ön plana çəkdi, heç vaxt ideologiyanın əsiri olmadı, öz yolunu, öz yazıçı azadlığını heç nəyə dəyişmədi. Bu kitabı neçə ildir hazırlayırdıq, nəşri bu ilə təsadüf etdi. Artıq David Şemokmedelinin şeirləri Azərbaycan, eləcə də İsa Hüseynovun əsərləri gürcü ədəbiyyatı aləminə daxil olub. Düşünürəm ki, qarşıda bizi hələ çox ədəbi mübadilələr, faydalı əməkdaşlıq gözləyir".

Gürcüstan Yazıçılar Birliyinin sədr müavini, şair Bağater Arabuli, "Merani" nəşriyyatının direktoru Manana Qorqiladze, dramaturq Quram Batiaşvili və digər çıxış edənlər kitablar haqqında fikirlərini bölüşüb, iki ölkə arasında ədəbi əlaqələrindən bəhs edib, bu prosesdə Azərbaycan Dövlət Tərcümə Mərkəzinin fəaliyyətini vurğulayıblar.

Gürcüstan Rustaveli Cəmiyyətinin prezidenti, şair David Şemokmedeli şeirlər kitabının Azərbaycan dilində nəşrinə görə Dövlət Tərcümə Mərkəzinin rəhbəri Afaq Məsuda minnətdarlığını bildirib.

Tədbirin bədii hissəsində Gürcüstanın Əməkdar artisti Paliko Nozadzenin ifasında David Şemokmedelinin "Astananın iki üzü" kitabındakı hekayə və şeirlər əsasında hazırlanmış monotamaşa təqdim olunub.

# Nizami Kino Mərkəzində "Ata yolu" filmi nümayiş etdiriləcək

Mayın 3-də Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təşkilatçılığı ilə Nizami Kino Mərkəzində Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir keçiriləcək.

İttifaqdan bildirilib ki, tədbir çərçivəsində Xalq artisti, kinorejissor Vaqif Mustafayevin "Ata yolu" filmi nümayiş olunacaq.

Ekran əsəri Prezident İlham Əliyevin Ümummilli liderin yenidən hakimiyyətə qayıdışına dair xatirələri ilə başlanır. Filmdə XX əsrin sonlarında ikinci dəfə müstəqillik qazanmış Azərbaycanın ictimai-siyasi mühiti, ölkəmizin bugünkü inkişaf səviyyəsinə nail olmasında, siyasi, iqtisadi uğurların təməlində Heydər Əliyevin əvəzsiz xidmətləri diqqətə çatdırılıb.

# ADMİU-da kadr hazırlığı prosesi ilə tanışlıq

Aprelin 29-da mədəniyyət naziri Adil Kərimli və Mədəniyyət Nazirliyinin əməkdaşları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) olublar.



ADMİU-nun rektoru professor Ceyran Mahmudova qonaqları salamlayıb. 2023-cü ilin 100 illik yubileyini qeyd edən universitet üçün əlamətdar olduğunu vurğulayan rektor naziri son illərdə ali məktəbin fəaliyyətindəki yeniliklərlə tanış edib.

Teatr sənəti, Rəssamlıq fakültələri və Audiovizual sənətlər fakültəsinin studiyası ilə tanış olan Adil Kərimli dekanlarla fikir mübadiləsi aparıb.

Daha sonra qonaqlar ADMİU-nun SABAH qrupları tələbələrinin ifasında Əməkdar artist Nofəl Vəliyevin quruluş verdiyi Bertolt Brextin "Teresa Karranın tüfəngləri" tamaşasına baxıblar.

# Verdinin "Nabukko"su Əyyub Quliyevin dirijorluğu ilə təqdim olunub

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri Əməkdar artist Əyyub Quliyev Buxarestin Milli Opera Teatrında italyan bəstəkarı Cüzeppe Verdinin "Nabukko" operasının tamaşasını idarə edib.

Simfonik orkestrlə yanaşı xor və balet heyətinin də yer aldığı tamaşada əsas rollar Buxarest teatrının solistləri Madelen Pasku (Abiqayl), Luçian Petrean (Nabukko), Marius Boloş (Zaxariya), Oana Andra (Fenena), Andrey Petre (İzmail) və digər tanınmış müğənnilər tərəfindən ifa olunub.

Tamaşadan sonra Buxarest Milli Opera Teatrının direktoru, tanınmış dirijor Daniel Jinqa Əyyub Quliyevlə görüşüb.

Qeyd edək ki, bu ilin fevral ayında Buxarestin Milli Opera Teatrının rəhbərliyinin Bakıya səfəri zamanı iki opera teatrı arasında qarşılıqlı əməkdaşlıq barədə saziş imzalanıb.

# 45 illik ömrə sığmayan sənət dünyası

## Xədicə Qayıbovanın 130 illiyinə həsr olunan gecə

Bu il Azərbaycanın ilk qadın pianoçularından Xədicə Qayıbovanın (1893-1938) anadan olmasının 130 illiyidir. Mayın 1-də Beynəlxalq Muğam Mərkəzində (BMM) musiqi xadiminin yubileyinə həsr olunan gecə keçirildi.



Tədbirin aparıcısı Hüseynağa Aslanov piano ifaçısının repressiya dalğası ilə kəsilən nakam həyat yolu və yaradıcılığından söz açdı. Diqqətə çatdırıldı ki, Xədicə Qayıbova 45 illik ömründə həm bir musiqiçi, həm də ictimai fəaliyyətlə məşğul olub. Xədicə xanım səhnə üçün yaranmışdı və səhnə də ona qollarını geniş açmış şəkildə gözləyirdi. O, fortepianoda xalq mahnıları və muğamlar əsasında improvizasiyalarla çıxış edir, konsertlər verir, tələbələr hazırlayırdı. Görüşlərdə, musiqi gecələrində həm özü, həm də yetirmələri ilə çıxış edirdi. Onun evi də Bakının yüksək mədəni təbəqəsinin görüş yeri sayılırdı. Musiqi, ədəbiyyat məclislərinin sədası onun evindən ətrafa yayılırdı. Qonaqlar arasında dövlət xadimləri, Bakıya qastrola gələn ifaçılar, Türkiyədən gələn alimlər, şairlər olurdu. Araşdırmalarda göstərilir ki, bu musiqi məclislərində həm də Ü.Hacıbəyli, R.Qliyer, H.Sarabski, Bülbül, F.Köprülüzadə, İ.Hikmət və başqa mədəniyyət, elm xadimləri yaxından iştirak ediblər.

Musiqili gecədə pianoçunun həyatından fraqmentlər nümayiş olundu, musiqilər səsləndirildi. Fortepiano əsərləri ilə yanaşı, muğam və xalq mahnılarına geniş yer verilmişdi. Bu da əbəs deyildi. Çünki Xədicə xanım muğam variasiyalarını fortepianoda ilk dəfə ifa edən musiqiçilərimizdən idi.

Bədii proqramın vokalçı, Əməkdar artist İlham Nəzərovun ifasında "Ana" mahnısı (söz – Fikrət Qoca, musiqi – Sevil Əliyeva) ilə açılması da gecəyə xüsusi lirik ahəng gətirmişdi.

Bu ifadan sonra Xədicə Qayıbovanın nəticəsi Nuridə Sultanova səhnəyə çıxaraq ulu nənəsinin yubileyinin qeyd edilməsində əməyi keçənlərə və bütün ifaçılara öz təşəkkürünü bildirdi. O, Ulu öndər Heydər Əliyevin musiqi sənətimizin inkişafını və təbliğini daim diqqətdə saxladığını dedi.

Xatirə gecəsi klassik musiqi və BMM-in solistlərinin ifasında muğam və xalq mahnılarından ibarət proqramla davam etdi.

**Lalə Azəri**

# Zirvələrə yüksələn zərif insan ömrü

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın (1923-1985) anadan olmasının (28 aprel) 100 illiyi münasibətilə şəhər və rayonlarda müxtəlif tədbirlər keçirilib.

Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı Kəlbəcər rayon 109 saylı tam orta məktəbdə "Zərifə Əliyeva ömrünün işığı" adlı tədbir təşkil edib.

Xocalı rayon Kosalar kənd Mədəniyyət evi və rayon Yaloba kənd Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Nurlu sima" adlı tədbir keçirilib.




Abşeron rayonu Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Ümummilli lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Daha sonra Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən film nümayiş olunub. Tədbir Azərbaycanın tanınmış incəsənət ustalarının ifasında təqdim olunan bədii proqramla davam edib.

Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Masallı Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə akademik Zərifə Əliyevanın yubileyinə həsr olunmuş "İşıq mücəssəməli ömür" adlı tədbir keçirilib.




Ağstafa rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Zərifə Əliyevaya həsr olunmuş videoçarx nümayiş etdirilib. Bildirilib ki, Zərifə Əliyevanın oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir.

Zaqatala Rayon İcra Hakimiyyəti və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə qeyd olunub ki, Zərifə Əliyeva Azərbaycan xanımlarının bütün gözəl xüsusiyyətlərini özündə birləşdirən insanlıq, qadınlıq meyarı idi. Sonra Zərifə Əliyevaya həsr olunan film nümayiş etdirilib.




Ağsu rayon Mədəniyyət Mərkəzi və rayon MKS-nin birgə təşkilatçılığı ilə Mərkəzi Kitabxanada "Dünya şöhrətli alim, nurlu insan" mövzusunda tədbir keçirilib. Oftalmoloq-alim haqqında sənədli film və "Zərifə Əliyeva – 100" başlıqlı kitab sərgisi nümayiş olunub.

Ağdam rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə çıxış edənlər Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurların Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil etməsindən, yüksəkixtisaslı kadrların yetişdirilməsində və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işində xüsusi diqqətindən, zəngin mənəviyyata sahib mənalı ömür yolundan söz açıblar.



Şirvan şəhər Heydər Əliyev Mərkəzi və Şirvan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Akademik Zərifə Əliyeva – 100" adlı fotosərgi və qalereyanın dərnək üzvlərinin rəsmlərindən ibarət sərgi keçirilib.

Şəmkir rayon Heydər Əliyev Mərkəzi və şəhər M.Füzuli adına tam orta məktəb-liseyinin birgə təşəbbüsü ilə "Zərifə Əliyeva – 100" adlı kitab sərgisi keçirilib.

Zərifə Əliyevanın 100 illiyi münasibətilə Daşkəsən rayon Heydər Əliyev Mərkəzində keçirilən konfransda "Zirvələrə yüksələn zərif insan ömrü" adlı film nümayiş etdirilib.

# Xalq şairi Ramiz Rövşən Qubada oxucularla görüşüb

Müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi, esseist, ssenarist, tərcüməçi Ramiz Rövşənlə Qubada oxucularla görüşü keçirilib.



Quba-Xaçmaz Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə keçirilən görüşdə bölgənin şairləri, təhsil və mədəniyyət işçiləri və məktəblilər iştirak ediblər.

Görüşdə rejissor Xalq artisti Ramiz Həsənoğlu, texnika elmləri doktoru, professor Rafiq Əliyev, Xaçmaz RMİ-nin rəisi vəzifəsini icra edən Fərid Musayev, Dövlət İmtahan Mərkəzi Xaçmaz Regional Bölməsinin müdiri Faiq Nadirsoy və başqaları çıxış edərək Ramiz Rövşən yaradıcılığının özünəməxsus xüsusiyyətlərindən danışıblar.

Xalq şairi poeziya və sənətlə bağlı qənaətlərini bölüşüb, yeni şeirlərini oxuyub, yaradıcılığı ilə bağlı oxucuların suallarını cavablandırıb.

Şairin poeziyasının vurğunu olan müxtəlif yaşlı oxucular müəllifin şeirlərini səsləndiriblər.

Sonda şair tədbirin təşkilatçılarına, iştirakçılarına öz təşəkkürünü bildirib və sənətsevərlər tərəfindən təqdim olunmuş kitabları imzalayıb.

# Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü

## Ulu öndərin 100 illiyi ilə bağlı tədbirlər davam edir

Sabirabad rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda elmi-praktik konfrans keçirilib. Çıxışlarda Heydər Əliyevin ölkə həyatının bütün sahələrinin inkişafı ilə bağlı gördüyü işlərdən bəhs edilib. Azərbaycan dövlətinin bu gün Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında uğurla inkişaf etdirildiyi diqqətə çatdırılıb.

***

Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Ulu öndər Heydər Əliyev uşaqların ən böyük himayədarı idi" mövzusunda tədbir təşkil edilib. Çıxışlarda Ulu öndərin uşaqlara göstərdiyi diqqət və qayğıdan, ölkəmizdə uşaqların hərtərəfli inkişafının təmin edilməsi istiqamətində görülən işlərdən danışılıb. Bildirilib ki, Azərbaycanda uşaqların sağlam, firavan böyüməsi və onların hüquqlarının qorunmasına xidmət edən dövlət siyasətinin əsası Heydər Əliyev tərəfindən qoyulub. Uşaqlar Heydər Əliyevin uşaqlıq və gənclik illərini əhatə edən ekspozisiya ilə tanış olub, dahi siyasətçiyə həsr olunmuş şeirlər söyləyiblər.









***

Bərdə Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi rayon və şəhərlərdə Ulu öndərin 100 illiyi münasibətilə keçirilən "Heydər Əliyev və mədəniyyətimiz" adlı bilik yarışması davam edir.

Yevlax şəhərində keçirilən yarışmada Qoyunbinəsi kənd orta məktəbinin "Şuşa" komandası, Mingəçevirdə keçirilən yarışmanın sonuncu mərhələsində isə "Zəfər" komandası qalib gələrək növbəti mərhələyə vəsiqə qazanıb.

***

Lənkəran RMİ, şəhər İcra Hakimiyyəti və Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Lənkəran şəhərindəki Heydər Əliyev xatirə parkında Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş rəsm sərgisi keçirilib.

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir!" mövzusunda konfrans keçirilib. Bildirilib ki, demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşan müasir Azərbaycanda milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır.

***

Füzuli rayon Qarabulaq kənd Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə Suraxanı rayon Q.Abbasov adına Mədəniyyət Sarayında "Uşaqlar bizim gələcəyimizdir" adlı konsert proqramı keçirilib. Ümummilli liderin 100 illiyinə həsr olunmuş konsertdə şagirdlər tərəfindən milli musiqi və rəqs nümunələri, xalq mahnıları təqdim olunub.





***

Ağdaş rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə rayonun Şordəhnə kənd Ə.Səlimov adına ümumi orta məktəbində "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı bilik yarışı keçirilib. Məktəbin 7, 8 və 9-cu sinif şagirdlərinin iştirak etdiyi yarışda "Zəfər", "Uğur" və "Dəmir yumruq" komandaları mübarizə aparıblar.

***

Tovuz Dövlət Rəsm Qalereyasında "Ürəklərdə yaşayan dahi" adlı dərnək üzvlərinin əl işlərindən ibarət rəsm sərgisi təşkil edilib.

***

Şəki şəhər 4 nömrəli Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə "Heydər Əliyev: Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir!" mövzusunda mühazirə keçirilib.

Zaqatala rayon Heydər Əliyev Mərkəzində məktəblilər arasında "Heydər Əliyev xatirələri" adlı şeir və mahnı müsabiqəsi keçirilib. Müsabiqədə rayonun 66 təhsil ocağını təmsil edən 100 məktəbli Ulu öndərə həsr olunan şeir söyləyib, mahnılar oxuyublar. Müsabiqənin qalibləri mayın 10-da elan olunacaq.

Qax rayon Heydər Əliyev Mərkəzində Ulu öndərin yubileyi ilə bağlı tədbir keçirilib. Tədbirdə mərkəzin əməkdaşları, Respublika Olimpiya İdman Liseyi Qax rayon şöbəsinin müəllim və şagirdləri iştirak ediblər.

Balakən rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev İli" çərçivəsində rəsm sərgisi təşkil edilib. Sərgidə Ulu öndərə həsr olunmuş və eyni zamanda vətənpərvərlik mövzusunda rəsmlər yer alıb.

***

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Müstəqilliyimiz əbədidir!" mövzusunda tədbir keçirilib. Çıxış edənlər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanı bütün dünyada şərəf və ləyaqətlə təmsil etməsindən, işğal altında olan torpaqlarımızın azad olunması istiqamətində sistemli və məqsədyönlü fəaliyyətin əsasının qoyulmasından danışıblar. Bildirilib ki, bu missiya Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Zəfərlə başa çatıb.

***

Biləsuvar RMİ, YAP Neftçala rayon təşkilatı, C.İsmayılov adına Neftçala şəhər Uşaq incəsənət məktəbinin birgə təşkilatçılığı, rayon İcra Hakimiyyətinin dəstəyi ilə Ulu öndərin 100 illik yubileyinə həsr olunan konsert keçirilib. Konsertdə görkəmli Azərbaycan və dünya bəstəkarlarının musiqiləri ifa olunub.

***

Gəncə şəhər Bülbül adına 3 saylı Uşaq musiqi məktəbinin Nəzəriyyə şöbəsində "Musiqidə Ulu öndər Heydər Əliyevin obrazı" adlı görüş keçirilib.

**Hazırladı: N.Məmmədli**

# Kürdəmirdə Xalq yazıçısı Anarın 85 illik yubileyi qeyd olunub

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialı tərəfindən Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anarın 85 illik yubileyi münasibətilə tədbir keçirilib.



Kürdəmir şəhərindəki Heydər Əliyev Mərkəzində təşkil olunan tədbiri giriş sözü ilə muzeyin Aran regional filialının müdiri filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı açaraq yazıçının həyatı və yaradıcılığı haqqında məlumat verib. O, Anarın yaradıcılığının müasirliyindən, realizmindən, emosional təsir oyatmaq gücündən danışıb.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov Anarın Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında böyük xidmətlərindən söz açıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Anarın öz yaradıcılığında müasir sənətin bir sıra xüsusiyyətlərini birləşdirdiyini vurğulayıb.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Xalq yazıçısının vətənimizdə, eləcə də onun sərhədlərindən kənarda əcnəbi dillərdə 100-ə yaxın kitabının çap olunduğunu diqqətə çatdırıb. O, Anarın əsərlərində dövrün ən aktual problemlərini qaldırdığını, Anar yaradıcılığı haqqında ölkəmizdə və dünyanın müxtəlif ölkələrində çoxsaylı məqalələrin dərc olunduğunu bildirib.

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli, Xalq artisti Fəxrəddin Manafov, "Qobustan" jurnalının baş redaktoru Pərvin Nurəliyeva çıxış edərək yazıçının ədəbiyyat, publisistika və kino sahəsindəki xidmətlərindən danışıb, təbriklərini çatdırıblar.

Daha sonra yazıçının əsərləri əsasında çəkilmiş "Evləri köndələn yar" tamaşasından, "Təhminə və Zaur", "Dədə Qorqud", "Üzeyir ömrü" filmlərindən fraqmentlər nümayiş etdirilib.

Xalq yazıçısı Anar çıxış edərək tədbirin təşkilatçılarına və çıxış edən hər kəsə dərin təşəkkürünü bildirib.

# Laçın-Xankəndi yolunda ekoloji aksiya 138 gündən sonra dayandırılıb

## Artıq yolda keçidə sərhədçilərimiz nəzarət edirlər...

Xəbər verildiyi kimi, 2022-ci il dekabrın 12-dən etibarən QHT nümayəndələri, ekofəallar və gənc könüllülərin Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində başladıqları dinc etiraz aksiyası 138 gündən sonra dayandırılıb.

Aksiya iştirakçılarının bir qrupu ilə aprelin 28-də Azərbaycanın dövlət nümayəndələrinin dəvəti əsasında görüş keçirilib. Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyinin inzibati binasında keçirilən görüşdə aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar yeni vəziyyətin yarandığı qeyd edilib. Buna görə də iştirakçılara aksiyanın dayandırılması təklif olunub.

Görüşdən sonra qeyri-hökumət təşkilatları nümayəndələri, ekofəallar və gənc könüllülərin açıqladığı bəyanatda qeyd olunur ki, Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində 138 gün davam edən ekoloji aksiyanın minlərlə iştirakçısı olub: "Bu müddətdə xalqımızın dəstəyini hər zaman hiss etmişik və bu dəstək bizi daha da ruhlandırıb. 2023-cü il aprelin 23-də Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən suveren ərazimizdə, Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması isə hər bir Azərbaycan vətəndaşı kimi bizi də qürurlandırır və sevindirir. Tələblərimizə qismən nail olduğumuzu, eləcə də dövlət nümayəndələri tərəfindən bizə dəfələrlə edilən müraciətləri nəzərə alaraq, 2023-cü il aprelin 28-də saat 18:00-dan etibarən etiraz aksiyamızı müvəqqəti dayandırmaq barədə qərar qəbul etmişik".

Bəyanatda o da vurğulanır ki, aksiya iştirakçılarının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasına, ekoloji fəsadlarla bağlı monitorinqin keçirilməsinə dair sülhməramlı kontingentin komandanlığından tələbləri qüvvədə qalır və bu tələblər yerinə yetirilməyəcəyi halda onlar aksiyanın yenidən bərpa olunması hüququnu öz üzərlərində saxlayırlar.

# Milli Muğam Müsabiqəsi başa çatıb

## Qaliblər ölkəmizi "Muğam aləmi" 6-cı Beynəlxalq Muğam Festivalında təmsil edəcəklər






*əvvəli səh. 1-də*

Diqqətə çatdırılıb ki, musiqi yarışmasına yaşı 18-dən 35-dək olan xanəndə və instrumental ifaçılar müraciət edib. İlkin seçim turlarından sonra müsabiqəyə 38 nəfər vəsiqə qazanıb. 38 iştirakçıdan 20-si xanəndəlik, 18-i isə instrumental ifaçılıq üzrə yarışıb. Müsabiqənin birinci turu aprelin 24-25-də, ikinci turu isə aprelin 26-da keçirilib.

Münsiflər heyətinin sədri Siyavuş Kərimi Milli Muğam Müsabiqəsinin əhəmiyyətindən danışıb. Qeyd edib ki, müsabiqə yeni istedadların üzə çıxmasına mühüm zəmin olub. Qədim tarixə malik Azərbaycan muğam sənəti böyük inkişaf yolu keçib. Bu sənət neçə-neçə müqtədir sənət xiridarının sayəsində günümüzə gəlib çıxıb. Bu gün müsabiqədə iştirak edən və qalib gələn gənclər bu estafeti onlardan qəbul edərək yaşadacaq, gələcək nəsillərə ötürəcəklər.

"Çox maraqlı bir yarışma idi. Lakin təəssüf hissi ilə bildirirəm ki, müsabiqəyə bir nəfər də olsun nəfəsli alətlər üzrə ifaçı qatılmadı. Biz bunu çox gözləyirdik, ümidli idik ki, nəfəsli alətlərin ifaçıları da yarışmada iştirak edəcək, amma olmadı. Düşünürəm ki, növbəti müsabiqələrdə bu sahədəki boşluq doldurulacaq və onlar da iştirak edəcəklər", – deyə Siyavuş Kərimi bildirib.

AMK-nın rektoru qaliblərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İlk olaraq səhnəyə müsabiqənin diplomantları dəvət olunaraq mükafatlandırılıb. Sonra 1-3-cü yerlərin sahibləri elan olunub.

Münsiflərin yekdil rəyinə əsasən, xanəndəlik üzrə 1-ci yerə Mirəli Sarızadə layiq görülüb. Xəyal Hüseynov 2-ci, Zümrüd Məmmədova və Daşqın Kürçaylı isə 3-cü yerləri tutublar.

İnstrumental ifaçılıq kateqoriyasında isə 1-ci yerə Vaqif Təhməzov, 2-ci yerə Cahandar Mikayılov, 3-cü yerlərə isə Bayraməli Əliyev və Soltan Nadirov layiq görülüblər.

Sonra qaliblər qala-konsert proqramı ilə çıxış ediblər.

Qeyd edək ki, hər iki kateqoriyada 1, 2 və 3-cü yer üzrə mükafatlar müvafiq olaraq 7 000, 5 000 və 3 000 manatdır.

Müsabiqədə xanəndə və instrumental ifa üzrə birinci yeri tutanlar ölkəmizi iyun ayında keçirilməsi nəzərdə tutulan "Muğam aləmi" 6-cı Beynəlxalq Muğam Festivalında təmsil edəcəklər.

# Müsabiqə qaliblərinin ürək sözləri

Milli Muğam Müsabiqəsinin xanəndəlik üzrə qalibi **Mirəli Sarızadə**:

– Milli Muğam Müsabiqəsində iştirak etdim və münsiflər heyəti tərəfindən birinci yerə layiq görüldüm. Ustadım tanınmış muğam ifaçısı, Əməkdar artist Təyyar Bayramovdur. Münsiflər heyətinin bütün üzvlərinə təşəkkür edirəm. Müsabiqədə çox böyük rəqabət var idi. İlk olaraq müsabiqədə "Mahur-hindi" muğamını ifa etdim, sonra isə "Arazbarı" zərb muğamını oxudum. Görünür, ifam münsiflər heyətinin xoşuna gəldi ki, mən birincilik qazandım.

2017-ci ildə Muğam Televiziya Müsabiqəsinin diplomantı olmuşam. Milli Muğam Müsabiqəsinin bərpa olunmasını gənc ifaçıların tanınması baxımından yüksək qiymətləndirirəm.

Ölkəmizi "Muğam aləmi" 6-cı Beynəlxalq Muğam Festivalında uğurla təmsil etməyə çalışacağam.

***

Milli Muğam Müsabiqəsinin instrumental ifaçılıq üzrə qalibi **Vaqif Təhməzov**:

– Azərbaycan Milli Konservatoriyasında magistr pilləsi üzrə birinci kursda oxuyuram. İxtisas müəllimim Ramiz Əzizov, muğam müəllimim isə Xalq artisti Elçin Həşimovdur. Müsabiqəyə qatılmağımda Elçin müəllimin böyük zəhməti olub. Onun çəkdiyi əmək hədər getmədi, mən var qüvvəmlə müəllimimin ümidini doğrultmağa çalışdım və buna da nail oldum. Biz birlikdə bu müsabiqəyə böyük zaman ayırdıq, xüsusi hazırlaşdıq. Müsabiqə çox böyük rəqabətlə keçdi.

Müsabiqədə "Tar sədası" adlı kompozisiya, "Xaric segah" muğamı və "Rəqs" kompozisiyasını ifa etdim. İlk dəfədir ki, belə mötəbər müsabiqədə iştirak edirəm. Ölkəmizi "Muğam aləmi" 6-cı Beynəlxalq Muğam Festivalında da layiqincə təmsil etmək istəyirəm. Gələcəkdə Azərbaycan tarında dünyanın böyük salonlarında ifa etmək niyyətindəyəm. Bu məqsədimə çatmaq üçün bundan sonra da böyük səylə çalışacağam.

# Bakı Xoreoqrafiya Akademiyasının buraxılış-hesabat konserti

Bakı Xoreoqrafiya Akademiyası (BXA) orta ixtisas təhsili pilləsi məzunlarının Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində Beynəlxalq Rəqs Gününə (29 aprel) həsr olunmuş buraxılış-hesabat konserti keçirilib.





Konsertdə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinin əməkdaşları, ali təhsil müəssisələrinin nümayəndələri, mədəniyyət xadimləri, BXA-nın tələbə-müəllim heyəti və digər qonaqlar iştirak ediblər.

Konsertdə BXA-nın tam orta təhsil pilləsi şagirdlərinin, orta ixtisas təhsili pilləsi məzun və tələbələrinin ifasında P.Çaykovskinin "Yevgeni Onegin" operasından polonez, A.Qlazunovun "Raymonda" baletindən divertisment, xalq musiqisi "Bayram süitası", C.Cahangirovun "Lirik rəqs", F.Şopenin "Prelüd variasiyası", acar rəqsi "Qandaqan", xalq musiqisi "Qafqaz rəqsi", Ə.Bədəlbəylinin "Qız qalası" baletindən adajio, xalq musiqisi "Qaval ilə rəqs" və digər əsərlər təqdim olunub.

Buraxılış-hesabat konsertinin bədii rəhbəri BXA-nın tədris işləri üzrə prorektoru, rektor vəzifəsini müvəqqəti icra edən Əməkdar artist Nailə Məmmədzadədir.

# "Sən elə bir zirvəsən..."

## Teatr Xadimləri İttifaqında bədii qiraət müsabiqəsi

Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə 3-5 may tarixlərində müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Sən elə bir zirvəsən..." adlı bədii qiraət müsabiqəsi keçiriləcək.

Müsabiqənin məqsədi dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə hər zaman fəxr etmiş milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyevə həsr edilmiş ədəbi-bədii nümunələri təbliğ etmək, habelə milli mədəniyyət məkanında baş verən yaradıcılıq proseslərini fəallaşdırmaq, bədii qiraətə olan marağı artırmaq və yeni yaradıcılıq axtarışlarına şərait yaratmaqdır.

Azərbaycan Teatr Xadimləri İttifaqının böyük zalında gerçəkləşəcək müsabiqənin qalibləri mükafatlandırılacaq.

# Kinorejissor Nicat Feyzullayevin xatirəsi anılıb

## Sənədli kino salnaməsinə retrospektiv baxış davam edir

Dövlət Film Fondunun Azərbaycan kinosunun 125 illiyi və "Azərbaycanfilm" kinostudiyasının 100 illiyi münasibətilə həyata keçirdiyi "Azərbaycanın sənədli kino salnaməsi" adlı silsilə retrospektiv baxış layihəsi davam edir.




Aprelin 28-də keçirilən növbəti tədbir kinorejissor Nicat Feyzullayevin (1945–2015) yaradıcılığına həsr olunub. Tanınmış rəssamlar Lətif Feyzullayev və Vəcihə Səmədovanın ailəsində dünyaya gələn Nicat Feyzullayev Azərbaycan kinosuna "Küçələrə su səpmişəm" bədii filmi və çoxsaylı sənədli ekran əsərləri bəxş edib.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev giriş sözündə Nicat Feyzullayevi nəcib insan, istedadlı rejissor, ziyalı və vətəndaş kimi xarakterizə edib.

Xalq artisti, kinorejissor Ramiz Həsənoğlu, Əməkdar artist, kinorejissor Elxan Qasımov, Xalq rəssamı Ağaəli İbrahimov, Əməkdar incəsənət xadimi, kinooperator, rejissor Nizami Abbas, Xalq artisti, kinoaktyor Şamil Süleymanlı çıxış edərək mərhum sənətkar haqqında xatirələrini bölüşüblər.

Ailə üzvləri adından Məhərrəm Məhərrəmov tədbirin təşkilinə görə Dövlət Film Fondunun kollektivinə təşəkkürünü bildirib.

Sonda Nicat Feyzullayevin "Azərbaycan rəngkarlığının kraliçası" (2009) sənədli filmi nümayiş olunub.

"Yaddaş" studiyasında çəkilən ekran əsəri Azərbaycanın ilk peşəkar qadın rəssamlarından Vəcihə Səmədovanın həyat və yaradıcılığından bəhs edir. Filmdə rəssamın müasirləri və həmkarları Tahir Salahov, Ömər Eldarov, Tokay Məmmədov, Həyat Abdullayeva, həmçinin bəstəkar Xəyyam Mirzəzadənin xatirələrinə də yer verilib.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (29)

### 1982-ci il 14 yanvar

Qarlı bir qış günündə Şuşada Azərbaycan ədəbi və mədəni irsinin təntənəsi olan mərasimlər – Molla Pənah Vaqifin məqbərəsinin və Vaqif Poeziya evinin açılışı keçirilib. Respublikanın rəhbəri Heydər Əliyev mərasimlərdə iştirak edib. Vaqifin məqbərəsinin rəmzi lentini Heydər Əliyev, Azərbaycan SSR Ali Sovetinin sədri Xalq şairi Süleyman Rüstəm və Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi, Xalq yazıçısı Mirzə İbrahimov kəsiblər. Heydər Əliyev Şuşa Tarix Muzeyi ilə də tanış olub.

Heydər Əliyevin Vaqif Poeziya evinin açılışı mərasimində nitqindən:

*"Əlamətdar haldır ki, Şuşada Vaqifin məqbərəsinin təntənəli surətdə açıldığı gün Poeziya evi də açılmışdır. Gərək çalışasınız ki, bu ev şəhərdə əsl poeziya mərkəzinə çevrilsin, ədəbiyyatı təbliğ etsin, şuşalıları, ilk növbədə də gəncləri, böyüməkdə olan nəsli vətənpərvərlik ruhunda tərbiyə etsin, onlara gözəllik hissi aşılasın.*

*Şuşanın zəngin tarixi vardır... Şuşanın Tarix Muzeyi bunu əks etdirir... Ekspozisiya məharətlə tərtib edilmişdir, şəhərin tarixindən və bugünkü həyatından, ümumən respublikanın müvəffəqiyyətlərindən kifayət qədər ətraflı bəhs edir. Siz gərək onu bundan sonra da zənginləşdirəsiniz... Üçmərtəbəli binanın salonlarında Azərbaycanın təsviri sənət ustalarının, o cümlədən Dağlıq Qarabağ rəssamlarının əsərləri göstərilir... Rəsm qalereyasının açılması, şübhəsiz, yaxşı təşəbbüsdür, şəhər sakinlərinin estetik tərbiyəsinə kömək edəcəkdir. Bununla birlikdə onun fondlarını yerli rəssamların əsərləri hesabına daha da zənginləşdirmək lazımdır. Bu, onları daha da həvəsləndirər...".*

Heydər Əliyev Şuşada həyata keçirilən quruculuq işləri ilə tanış olub, tövsiyələrini verib. Bildirib ki, yeni binalar tikməklə yanaşı qədim şəhərin qorunub saxlanmasına, tarixi keçmişin abidələrinə də xüsusi fikir vermək lazımdır. Şuşa qədirbilən şairlər, musiqiçilər, rəssamlar məskəni kimi məşhur olub. Buranın havasında poeziya və musiqi duyulur, təbiət özü yaradıcılığa ruhlandırır, ilham gətirir. Burada mədəniyyət ustaları üçün yaradıcılıq evi tikmək məqsədəuyğun olardı.

***

Həmin gün Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Stepanakert (Xankəndi – red.) şəhərində Dağlıq Qarabağ fəallarının yığıncağındakı çıxışında da bölgənin mədəni inkişafından bəhs edib:

*"...Şuşanın tarixi, xatirə yerləri ilə tanış olarkən razılıq hissilə qeyd etdik ki, son illər şəhərdə böyük dəyişikliklər baş vermişdir. Məlum olduğu kimi, 1976-cı ildə Azərbaycan KP MK və respublikanın hökuməti Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında qərar qəbul etmişlər. Qərarda tarix və memarlıq abidələrinin bərpa edilməsi və qorunub saxlanılması ilə əlaqədar məsələlər də nəzərdə tutulmuşdur. Həmin sənədin yerinə yetirilməsi üçün az iş görülməmişdir...*

*Biz şəhərə baxarkən faydalı təkliflər, o cümlədən ötən əsrin məşhur şairəsi Xurşidbanu Natəvanın evinin bərpası haqqında təklif eşitdik... Azərbaycan KP MK, respublika hökuməti müasir dövrün tələbləri, keçmiş və indiki dövr haqqında fikirlərimiz nəzərə alınmaqla Şuşa şəhərinin Azərbaycanın əsl mədəniyyət, şəhərsalma, arxitektura və incəsənət incisinə çevrilməsi üçün əllərindən gələni etməyə hazırdır...*

*Şuşada poeziya evi açıldı. Onun açılışında şairlər öz şeirlərini oxudular... Ümidvarıq ki, yeni poeziya evi Şuşada ədəbi yaradıcılığın inkişafına, xalqların dostluğunun daha da möhkəmlənməsinə xidmət edəcəkdir.*

*Yeri gəlmişkən, qeyd edək ki, burada, Şuşada keçirilən şənliklərdə Vaqif poeziya gününü ənənəyə çevirmək ideyası meydana gəlmişdir. Respublikamızda Nizami, Sabir, Yesenin, Səməd Vurğun poeziya günləri keçirilir və onlar ənənəyə çevrilmişdir... Zənnimcə, Vaqif poeziya günləri də bu gözəl ənənəni zənginləşdirərdi...*

*Bütün bunlar barədə danışarkən mən adamların ünsiyyətinin – mənəvi-şəxsi ünsiyyətinin böyük əhəmiyyətini bir daha dönə-dönə qeyd etmək istəyirəm. Dağlıq Qarabağa respublikamızın görkəmli mədəniyyət və elm xadimləri, yaradıcılıq ittifaqlarının rəhbərləri, yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar, kinematoqrafçılar, Elmlər Akademiyasının prezidenti başda olmaqla, alimlər gəlmişlər. Yəqin ki, Stepanakertə (Xankəndinə – red.) və Şuşaya eyni vaxtda hələ heç zaman bu qədər çox elm və mədəniyyət xadimi gəlməmişdir...*

*Biz belə hesab edirik ki, bu cür görüşlər çox faydalı və lazımlıdır... Bununla birlikdə bugünkü görüşlər, sözsüz, Dağlıq Qarabağın mədəniyyət xadimlərinin bütün respublikanın mədəniyyət xadimləri ilə yaradıcılıq əlaqələrinin möhkəmlənməsinə kömək edəcəkdir. Burada Yazıçılar İttifaqının şöbəsi fəaliyyət göstərir, rəssamlar, musiqiçilər, dram teatrı vardır, mənəvi həyatı inkişaf etdirmək üçün hər cür şərait yaradılmışdır. İstərdik ki, Dağlıq Qarabağın və respublikamızın başqa regionlarının ziyalı qüvvələrinin qarşılıqlı fəaliyyəti bütün çoxmillətli sosialist mədəniyyətimizin böyük tərəqqisi naminə müvəffəqiyyətlə inkişaf etsin...".*

### 1982-ci il 19 yanvar

Heydər Əliyev SSRİ Bəstəkarlar İttifaqı İdarə heyətinin birinci katibi Tixon Xrennikovu qəbul edib. Söhbət zamanı musiqi sənətinin inkişafı məsələlərinə toxunulub. T.Xrennikov Azərbaycan bəstəkarlıq məktəbinin müvəffəqiyyətlərini, bu işdə görkəmli musiqiçi, ictimai xadim Üzeyir Hacıbəyovun böyük xidmətlərini qeyd edib.

### 1982-ci il 20 yanvar

Heydər Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Niyazinin dirijorluğu ilə simfonik orkestrin ifasında Tixon Xrennikovun əsərlərindən ibarət konsertə tamaşa edib.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# Ustad qarmon ifaçısı, Xalq artisti Aftandil İsrafilov vəfat edib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Tanınmış qarmon ifaçısı, Xalq artisti, "Şöhrət" ordenli Aftandil İsrafilov aprelin 29-da, ömrünün 83-cü ilində vəfat edib.



Aftandil Eynulla oğlu İsrafilov 1941-ci il yanvarın 24-də Bakı şəhərində anadan olub. 1961-ci ildə Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) Mülki tikinti fakültəsinə qəbul olub. Qarmona olan marağı onun təhsilini yarımçıq qoyaraq həyatını musiqiyə həsr etməsinə səbəb olub.

İstedadlı ifaçı "Azkonsert"in tərkibində ansambl yaradaraq sənət fəaliyyətini davam etdirib. 1970-ci ildə Xalq artisti Zeynəb Xanlarova ilə birgə Türkiyədə qastrol səfərindən sonra onun ansamblının tərkibində dünyanın dörd bir yanında Azərbaycan musiqisinin təbliği ilə bağlı silsilə konsertlərdə çıxış edib. Ustad qarmon ifaçısı dinləyicilərin böyük rəğbətini qazanmış "Kəmalə", "Nazilə", "Aynurə", "Jalə", "Basqalı" kimi onlarla melodiyanın da müəllifidir.

Aftandil İsrafilov Azərbaycan ifaçılıq məktəbinin inkişafındakı müstəsna xidmətlərinə görə 1998-ci ildə "Xalq artisti" fəxri adına, 2016-cı ildə "Şöhrət" ordeninə layiq görülüb. 2003-cü ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

İfaçılıq sahəsində öz dəst-xətti olan sənətkar milyonlarla musiqisevərin qəlbini fəth edib. Tanınmış musiqiçi, gözəl insan Aftandil İsrafilovun əziz xatirəsi onu tanıyanların, həmkarlarının qəlbində yaşayacaq.

Allah rəhmət eləsin.

***



Aprelin 30-da paytaxtdakı Heydər məscidində Xalq artisti Aftandil İsrafilovla vida mərasimi keçirilib.

Mərasimdə Mədəniyyət Nazirliyinin, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nümayəndələri, mərhumun sənət dostları, incəsənət xadimləri, ictimaiyyət və media təmsilçiləri mənsubları iştirak edib.

Sənətkar müəllifi olduğu ritmik qarmon melodiyalarından birinin – "Kəmalə" rəqsinin sədaları ilə son mənzilə yola salınıb.

Aftandil İsrafilov II Fəxri xiyabanda dəfn edilib. Məzarın önünə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın adından, eləcə də Mədəniyyət Nazirliyi və digər qurumların adından əklillər qoyulub.

# Cəmiyyət, mədəniyyət və hüquq məkanında müəllif

## Əqli Mülkiyyət Agentliyinin rəhbəri beynəlxalq konfransa qatılıb

Moskvada Avrasiya Patent Təşkilatı (APT), Rusiyanın Əqli Mülkiyyət üzrə Federal Xidməti (Rospatent), Rusiyanın "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqat Universitetinin "UNESCO-nun müəlliflik hüququ, əlaqəli, mədəni və informasiya hüquqları üzrə kafedrası" Beynəlxalq Elm-Təhsil Mərkəzi və Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının birgə təşkilatçılığı ilə "Müəllif" ("Avtor/Author") III beynəlxalq elmi-praktik konfransı keçirilib.

Konfransın APT-nin prezidenti Qriqoriy İvliyevin moderatorluğu ilə keçən plenar iclasında onlayn rejimdə qoşulan Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi İdarə heyətinin sədri professor Kamran İmanov "Cəmiyyət, mədəniyyət və hüquq məkanında müəllif" mövzusunda məruzə ilə çıxış edib. Onun məruzəsi tədbir iştirakçıları tərəfindən maraqla dinlənilib, qaldırılan məsələlərin müəlliflik hüququ sahəsinin tədqiqi baxımından əhəmiyyətli olduğu vurğulanıb.

Q.İvliyev fənlərarası yanaşmanın imkanlarından mükəmməl şəkildə istifadə etməklə təqdim olunan bu məruzənin zəngin olduğunu qeyd edib və K.İmanova təşəkkürünü bildirib. O, məruzənin UNESCO kafedrasının əqli mülkiyyətə dair elmi jurnalında dərc ediləcəyini qeyd edərək, belə materialların yalnız konfransda dinləməyə deyil, onların üzərində bir çox tədqiqatçıların sistemli işləməsinə imkan yaradılacağını diqqətə çatdırıb.

# Sənətə səpələnmiş inci dənələri

Qəribə tale yaşayır aktyorlar. Hər obraza bir ömür, bir tale bəxş edirlər. Sonra onları inci kimi sapa düzüb zərif boyunbağıya çevirirlər. Daha sonra da səssiz-səmirsiz bu həyatdan gedirlər...

Təbiidir, dünyaya hər gələn bir gün ömrünü başa vurmalıdır. Amma onlar bu dünyanı tərk edəndə arxalarında göz yaşlarına boğulan doğmaları, işıqlı xatirələri ilə yanaşı, bir də sənət ömrü verdiyi obrazları qoyub gedirlər. Valideynini itirmiş uşaq kimi sahibsiz qalan o rollar da sapı qırılmış düzümlərindən ayrılıb ətrafa səpələnir...

Azərbaycan səhnəsinin zərif, həlim, sevgi dolu aktrisası, həm həyatda, həm də sənətdə əsl ana obrazında qalmağı bacaran Əməkdar artist Mirvari Novruzovanı xatırlayacağıq. Adı kimi özü də zərif, inci qadını...



Anadan olmasının 100 illiyində şirin xatirələr, doğma adlar və 71-ci dayanacağında bitən yolun izləri işığında bir insan ömrünə nəzər salacağıq.

Mirvari Novruzova 17 aprel 1923-cü ildə Bakıda anadan olub. Atasını 10 yaşında itirən gələcəyin aktrisası fiziki və mənəvi əzablarla baş-başa qalır, zərif çiyinlərinə ailəsinin yükünü almaq məcburiyyəti yaşayır. Anasına kömək edərək istər ev, istərsə də çöl işlərində əlindən gələni edir. Bir qayğısız uşaq üçün bu, sözsüz ki, ağır idi və yəqin elə buna görə də aktrisanın gözlərinin ən dərinliyindəki məsum uşaq hey kədərli idi.

Uşaqlıqdan teatra, səhnə sənətinə maraq göstərir. Orta məktəbi bitirdikdən sonra Bakı Teatr Texnikumuna daxil olur. Tələbə ikən Azərbaycan Dövlət Dram Teatrında müxtəlif tamaşalarda epizodik rollar oynayaraq diqqəti cəlb edə bilir. Beləcə, böyük səhnə səxavətlə ona qucaq açır.

Məhrumiyyətlərlə dolu müharibə dövründə – 1942-ci ildə təhsilini bitirən Mirvari Novruzova Azərbaycan Dövlət Dram Teatrında fəaliyyətini davam etdirir. Üzləşdiyi çətinliklərə rəğmən teatrdan qopmur. Əksinə, sənətinə daha dərindən bağlanaraq yaratdığı obrazların xarakter və ifadə imkanlarını daha da genişləndirir. Sənət uğurları qiymətləndirilir, 1949-cu ildə respublikanın "Əməkdar artist"i fəxri adına layiq görülür.

Səhnədə debütünü "Eşq və intiqam" tamaşasında Qəmər obrazı ilə edən aktrisa ardınca teatr və televiziya tamaşalarında, eləcə də bədii filmlərdə müxtəlif xarakterli rolları – "Qaçaq Nəbi"də Həcəri, "Vaqif"də Xuramanı, "Solğun çiçəklər"də Gülnisəni, "Xırs quldurbasan"da Zalxanı, "Nişanlı qız"da Qəməri, "Sevil"də Taftanı, "Xoşbəxtlər"də Həliməni, "Əliqulu evlənir"də Gövhəri, "Toy"da Ceyran xalanı, "Hacı Qara"da Tükəzi, "Pəri-cadu"da Hafizəni, "Dumanlı Təbriz"də Zeynəbi, "Qadın faciəsi"ndə Qadını, "Göz həkimi"ndə Sənəm xalanı, "Kişilər"də Darçın xalanı, "Almaz"da Yaxşını, "Baladadaşın ilk məhəbbəti"ndə Sevincin anasını məharətlə canlandırıb.

Azərbaycanın görkəmli aktyoru, bədii qiraət ustası, Xalq artisti Əli Zeynalovun ömür-gün yoldaşı olan Mirvari Novruzova sənət yolunda da 40 il birgə addımladığı tərəf-müqabil ilə dövrün tamaşaçılarının sevimli cütlüyünə çevrilirlər.

Aktrisanın obrazlar qalereyasına nəzər salarkən görürsən ki, onun üçün rolun böyük, kiçik, epizodik olmasının heç bir əhəmiyyəti yoxdur. O, səhnədə olmağı, tamaşaçı ilə ünsiyyəti hər şeydən üstün tuturdu.





Mənfi qəhrəmanlara da səhnə ömrü verən, onların da öhdəsindən peşəkarcasına gələn aktrisa hər rolu fərqli üslubda təqdimata can atırdı. Klassik aktyor məktəbi ənənələrinə sadiq aktrisa bütün vücudu – səsdən mimikaya bütün təsir vasitələrindən məharətlə istifadə edirdi. Məhz bu səbəbdən də onun səhnə obrazları həmişə yadda qalırdı. Özünəməxsus səsi, danışıq tərzi, ünsiyyət texnikası olan aktrisa ömrü boyu bir səhnəyə – indiki Akademik Milli Dram Teatrına sadiq qalıb. Öz sənətkar və qadın səadətini də məhz buradan tapdığına görə bu teatr onun doğma ocağı, isti yuvası idi.

Televiziya tamaşaçıları, aktrisanı səhnədə canlı görmək imkanı olmayan yeni nəsil sənətsevərlər onu bir-birinə əks olan iki ekran işi – "Solğun çiçəklər"də əzazil Gülnisə və "Pəncərədə işıq"da qayğıkeş Ana kimi tanıyırıq. Əslində, o, bunlardan əvvəl və sonra da bir neçə televiziya tamaşası və bədii filmdə irili-xırdalı rollar oynayıb. Amma, məncə, ona böyük sevgini bu iki dolğun rolu qazandırıb, onun aktrisa kimi imkanlarını bütünlükdə göstərə bilib.

Onu da deyim ki, Mirvari xanım gözəl rollarıyla bərabər məlahətli səsi ilə də yaddaşlarda qalıb. Bir çox filmlərin dublyajında iştirak edib, ayrı-ayrı aktrisaların oynadığı neçə-neçə rolu səsləndirib. Tamaşaçı onunla oyununda, özü olmadıqda isə səsində sevgi ilə ünsiyyət qurub.

Səhnədə də, həyatda da eyni səmimilikdə, təbiilikdə olan Mirvari xanımı hamı çox sevirdi – sənət dostları da, iş yoldaşları da, tamaşaçılar da.

İllər sonra onu bir də tərəf-müqabili olduğu görkəmli sənətkarların – Xalq artistləri Rafiq Əzimov, Hacı İsmayılov və Nurəddin Mehdixanlının xatirələrindən yad edək.

**Rafiq Əzimov:** "Səhnəmizə yeni ab-hava gətirən, yaratdığı obrazlarla bir məktəbə, nümunəyə çevrilən Mirvari Novruzova surətin daxili aləmini özününküləşdirməyi məharətlə bacarırdı. Xüsusilə də ziddiyyətli təbiətə malik, qəzəbli, məkrli obrazlar onun təqdimatında çox inandırıcı alınırdı. O, can verdiyi səhnə tiplərini mükəmməl və bitkin yaratmağa çalışırdı. Mirvari xanımda həm sənət məsuliyyəti çox yüksək idi, həm də canında, qanında Allahın əsirgəmədiyi bir istedad yuva qurmuşdu. Məhz bu təbii gücün sayəsində istənilən mürəkkəb rolu məharətlə oynayırdı. Özünəməxsus jestləri ilə danışıq və gülüşləri vardı. Onunla bir neçə tamaşada oynamışam. Həddən ziyadə təbii aktrisa idi. Teatrı çox sevirdi. O, mənə çox əziz idi".

**Hacı İsmayılov:** "Onunla "Sizi deyib gəlmişəm"də tərəf-müqabil olmuşam. Məişət mövzulu tamaşalarda rolları məharətlə ifa edirdi. "Əliqulu evlənir"də Gövhər onun ən gözəl rollarından idi. Aktrisa öz üslubunu, oyun tərzini məharətlə diktə edirdi. Komik və ya dramatik fərqi qoymadan rollarının öhdəsindən bacarıqla gəlirdi. Xarakterik aktrisa idi və onun üçün janrın önəmi yox idi. Çünki çoxplanlı aktrisa idi və hər rolunda dəyişməyi bacarırdı".

**Nurəddin Mehdixanlı:** "O, Azərbaycan teatrının çox maraqlı aktrisalarından biri olub. Həm də bir insan kimi maraqlı və fərqli idi. Bildiyiniz kimi, Akademik Milli Dram Teatrının səhnəsində saysız rollar oynayıb. Amma o, mənim üçün "Pəncərədə işıq" televiziya tamaşasında qəhrəmanım Toğrulun anası kimi o qədər təbii, doğma idi ki, izah edə bilmirəm. Roluna o qədər qapılmışdı ki, çəkilişlər zamanı verilən fasilələrdə də mənə ana qayğısı, sevgisi ilə yanaşırdı. Bir çox rollar oynasa da, tamaşaçı yaddaşında məhz gözəl ana kimi qaldı. Çünki o, həyatda da mükəmməl ana, mehriban nənə idi. Mirvari xanım mənim üçün daim çox əziz və doğma olub. Onu daim belə ehtiramla yad edirəm. Çünki o, milli teatr mədəniyyətimizin parlaq, unudulmaz və maraqlı səhifəsidir və mən sənətdəki anam Mirvari xanımı heç vaxt unutmayacağam".

Beləcə, 70 illik ömrün 50 ildən çoxu səhnədə, sənətdə keçir. Aktrisanın yeni rollar oynamaq istəyi bitib-tükənməsə də, sevimli teatrı ilə vidalaşmalı olur. Təqaüdə göndərilir.

Həyat yoldaşını itirən, teatrdan uzaqlaşan aktrisa tamam-kamal ruhdan düşür. Elə bu zaman vaxtilə tərəf-müqabil olduğu Xalq artisti Amaliya Pənahova onu yaratmış olduğu Bakı Bələdiyyə Teatrına dəvət edir. Yenidən səhnəyə qayıtmağın sevincini yaşayan sənətkar 1994-cü ilin 20 martında əbədiyyətə qovuşur. Sevgi və mərhəmət dolu ürəyi onu elə işə gedərkən yarı yolda qoyur...

**Həmidə Nizamiqızı**

# "Azərbaycan muzeylərinin himayədarı"

Milli Azərbaycan Tarixi Muzeyində "Heydər Əliyev – Azərbaycan muzeylərinin himayədarı" adlı silsilə interaktiv dərslərə başlanılıb.

Bu barədə muzeydən məlumat verilib. Bildirilib ki, Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan layihə üzrə ilk dərsdə paytaxtın Xəzər rayonundakı 262 nömrəli tam orta məktəbin şagirdləri iştirak ediblər.

Dərsin birinci hissəsində Ümummilli liderin Azərbaycan muzeylərinin inkişafındakı rolu haqqında muzeyin fond materialları əsasında hazırlanmış fotoslayd vasitəsilə şagirdlərə məlumat verilib.

Sonra məktəblilər gipsdən hazırlanmış fiqur üzərində simvolik suvenirin rənglənməsi qaydasını öyrəniblər və müxtəlif intellektual oyunlarda iştirak ediblər. Sonda Hacı Zeynalabdin Tağıyevin Ev-Muzeyinə ekskursiya təşkil olunub.

# Tarixçi, tərcüməçi və təyyarəçi

## Tağı Musəvi Cənubi Azərbaycanda milli hərəkatda da fəal iştirak edib

Bu il Cənubi Azərbaycanda milli hərəkatın və Azərbaycan Demokrat Partiyasının fəallarından biri, tarixçi, tərcüməçi, hərbi təyyarəçi Tağı Musəvinin anadan olmasının 105 illiyi tamam olur.

Tağı Məmmədəli oğlu Musəvi (Tağıyev) 1 may 1918-ci il tarixdə Təbrizdə dünyaya göz açıb. T.Musəvi 1923–1930-cu illərdə Təbrizdə "Gülzar" adlı yeddiillik məktəbdə oxuyub, bir müddət şəhərdəki xalça fabrikində fəhlə işləyib. 1934-cü ildə Təbrizdə "Ədib" adlı orta məktəbi, sonra isə hərbi məktəbi bitirib. Sonra Tehran Ali Hərbi Universitetinə göndərilib. 1941-ci ildə universiteti leytenant-şturman olaraq bitirib və xidmət etmək üçün İran Hərbi Hava Qüvvələrinin birinci alayına təyinat alıb. Eyni vaxtda İran Xalq Partiyasının (Tudə) sıralarına daxil olub. 1942-ci ildə xidmət ixtisasını artırmaq üçün Tehran Təyyarəçilik Məktəbinə göndərilib. 1942–1945-ci illərdə Tehran, İsfahan və Kirmanşahda İran Hərbi Hava Qüvvələrinin təyyarəçi-şturmanı olaraq xidmət edib.

Cənubi Azərbaycanda milli hərəkatın fəalı kimi 1945-ci ildən 1946-cı ilədək gizli şəkildə partiya fəaliyyəti ilə məşğul olub və partizan dəstəsinə başçılıq edib. Cənubi Azərbaycanda Milli Hökumət qurulduqdan sonra 1946-cı ilin aprel ayında Azərbaycan SSR-ə ezam olunub, Kirovabad (Gəncə) Hərbi Təyyarəçilik Məktəbində hərbi təyyarəçi-kapitan kimi ixtisaslaşıb. O, 1947–1951-ci illərdə Azərbaycan KP MK nəzdində Partiya Məktəbində təhsil alıb, 1952–1956-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Marksizm-Leninizm kafedrasının aspiranturasında təhsil alıb. 1956–1961-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Radio Verilişləri və Televiziya Komitəsində radionun xarici verilişlər redaksiyasında redaktor və tərcüməçi, 1980-ci ilədək isə Azərbaycan SSR EA-nın Tarix İnstitutunda kiçik elmi işçi vəzifəsindən baş elmi işçiliyədək yol keçib.







T.Musəvi 1979-cu ildə İranda İslam inqilabından sonra ailəsini Azərbaycanda qoyub İrana qayıdır. 1981-ci ildə Bakıda qalmış həyat yoldaşı Tuğra Məmməd qızı Musəvinin (1929-cu il təvəllüdlü) ağır xəstə olması xəbərini alır və Bakıya geri dönür. Ancaq həyat yoldaşı 52 yaşında Bakıda vəfat edir. T.Musəvi bundan sonra yenidən İrana qayıdır. Lakin daha orada çox yaşaya bilmir. Siyasi təqiblərə məruz qalır. 1982-ci ildə dostlarının köməyi ilə Əfqanıstan tərəfdən SSRİ ərazisinə keçir. Yenidən Bakıda yaşamağa başlayır. 1994-cü ildə insult keçirir. Bir müddət sonra İsveçin Lund şəhərində yaşayan qızı Azərinin yanına gedir və ömrünün sonunadək orada yaşayır.

30 iyul 2000-ci il tarixdə, 82 yaşında Lund şəhərində dünyasını dəyişib və vəsiyyətinə əsasən, bu şəhərdəki qəbiristanlığın müsəlmanlar üçün ayrılmış hissəsində dəfn olunub.

T.Musəvinin 1952-ci il təvəllüdlü oğlu Yusif ABŞ-da, 1954-cü il təvəllüdlü qızı Azərin İsveçdə yaşayır. 1962-ci il təvəllüdlü oğlu Ruzbeh isə 30 il Almaniyada yaşayıb və 2022-ci ildə orada da vəfat edib.

T.Musəvi 1960–1970-ci illərdə Azərbaycan tarixçiliyində çox məhsuldar fəaliyyət göstərib. Onun rəhbərliyi və iştirakı ilə Cənubi Azərbaycan Milli Hökumətinin qurucusu Seyid Cəfər Pişəvərinin seçilmiş əsərləri toplanılıb tərcümə edilib və geniş müqəddimə ilə 1965-ci ildə ərəb qrafikalı Azərbaycan əlifbası ilə Bakıda çap olunub. Müəllifi olduğu "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" (1965), "Bakı tarixinə dair Orta əsr sənədləri" (1967) kitabları maraqla qarşılanıb. O, həmçinin "F.Rəşidəddinin "Vəqfnameyi Rəbi-Rəşidi" əsərində Azərbaycan tarixinin ictimai-iqtisadi, mülki və hüquqi məsələlərinə dair" çoxcildlik üçün geniş məqalə də yazıb.



**Rahim Həsənov**
**AMEA Şəki Regional Elmi Mərkəzi Tarixi irs və etnoqrafiya şöbəsinin müdiri**

**Aydın Məmmədov**
**M.F.Axundzadə adına Şəki Mədəniyyət Mərkəzinin əməkdaşı**

# “Uşaq yaşlarımdan oxuduğum kitablara illüstrasiyalar çəkirdim...”

## Firəngiz Qurbanova: “Şanlı Zəfərimizi yeni nəsillərə xeyirin şər üzərində qələbəsi kimi çatdırmalıyıq”

O, görkəmli aktyor, Xalq artisti Ağadadaş Qurbanovun ailəsində dünyaya gəlib. Bu ailə Azərbaycan incəsənətinə sevilən adlar bəxş edib. Kim tanımır bu adları: aktrisa Gülşən Qurbanova, aktyor Hamlet Qurbanov və Əməkdar incəsənət xadimi, kino rəssamı, animasiya rejissoru, Azərbaycan Rəssamlıq Akademiyasının professoru, “Birlik” animasiya studiyasının rəhbəri Firəngiz Qurbanova.

Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun (ÜDKİ) məzunu olan Firəngiz Qurbanova C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında quruluşçu rəssam kimi çalışıb. “Alma almaya bənzər”, “Şir evdən getdi”, “Gümüşü furqon” və digər sevilən bədii filmlərin quruluşçu rəssamı, “Seans”, “Bulud niyə ağlayır?”, “Anam ağacda” və s. cizgi filmlərinin quruluşçu rəssamı və rejissorudur.

Bu il Firəngiz xanımın 80 illiyidir. Bu münasibətlə sənətkarla Azərbaycan Dövlət Rəssamlıq Akademiyasındakı (ADRA) iş otağında görüşüb həmsöhbət olduq.

*– Firəngiz xanım, studiyanızda görüşməyimiz də maraqlı olardı.*

– Düzü etiraf edim ki, mənim evim də, studiyam da emalatxanamda yerləşir. Ulu öndər Heydər Əliyevin rəssamlara verdiyi bu emalatxanada oğlum, gəlinim və nəvəmlə birgə yaşayırıq. Bu gün mən heç nədən şikayətçi deyiləm. Çalışmışam tapşırılan işin öhdəsindən gəlim. Hərənin öz yaşam faktoru var.

*– “Birlik” animasiya studiyası necə yarandı?*

– 1985-ci ildə, keçmiş ittifaqda elan edilən yenidənqurma dövründə belə bir qərar verildi ki, yaradıcı insanlar öz yaradıcı qruplarını yarada bilərlər. Bu zaman özüm yaradıcı proqramımı hazırlayıb təqdim etdim və müstəqil yaradıcılıq birliyi təşəbbüsümü irəli sürdüm. O zaman kinostudiyada çalışırdım. Filmlərim olduğu üçün məni Moskvada tanıyırdılar və studiya orada təsdiq edildi, 1988-ci ildə fəaliyyətə başladı. Təqdimatda görkəmli kinodramaturq Rüstəm İbrahimbəyov da iştirak edirdi. Yəni Moskvanın proqramı təsdiqləyən idarə heyətinin tərkibinə Rüstəm müəllim də daxil idi.

*– Buna qədər də siz bir çox məşhur filmlərin rəssamı kimi tanınırdınız və böyük bir yol gəlmişdiniz?*

– Bəli, mən quruluşçu rəssam ixtisası üzrə oxumuşdum. Bakıya qayıdan kimi də birbaşa mənə film verildi. Həyat yoldaşım Fikrət Əhədov da Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bitirmişdir. O, məndən əvvəl kinostudiyada çalışırdı. Bizim birlikdə işlədiyimiz ilk ekran işi Yalçın Əfəndiyevin “Xatirələr sahili” filmi oldu. Bəzən ikimiz də ayrı-ayrı filmlərdə çalışdığımızdan oğlumuzun üzünü belə gec-gec görürdük.

*– Müsahibələrinizin birində deyirsiniz ki, atanız və ananızin gözəl rəsm çəkmək bacarığı olub. Yəqin bu istedad sizə gəndən gəlir?*

– Əmim mənim kiçik yaşlarımdan rəsm çəkməyimi çox bəyənirdi. Anam mütaliəni çox sevirdi və bizə də kitab oxudururdu. Mən hələ uşaqlıqdan oxuduğum kitablara illüstrasiyalar çəkirdim. Bu illüstrasiyalar sanki kadrlara bənzəyirdi. Yəni hekayəni kadr-kadr çəkirdim. O vaxt, təbii ki, heç bilmirdim kino nədir, kadr nədir. Amma kinonu sevirdim. İndi baxanda görürəm bunlar eksplikasiyadır. Anam o vaxt biləndə ki, ÜDKİ-də belə bir ixtisas var məni ora oxumağa göndərdi.

*– Bədii filmdən animasiyaya gəlmək. Nədir sizə animasiyanı sevdirən?*

– Öncə onu deyim ki, Azərbaycan animasiyası həmişə tanınıb, sevilib. Filmlərimiz həmişə festival və müsabiqələrdə mükafatlar qazanıb. Mən kinonun bütün formalarının sintezini yaratmaq istəyirdim.



“Arzunu yarat” adlı ilk filmimdən sonra “Seansı” işlədim. Bu mövzular məni çox düşündürürdü. Bu film beynəlxalq arenada böyük uğur qazandı. O zaman bütün sifarişlər Moskvadan gəlirdi. Mərkəzi Televiziyanın sifarişi ilə Dinara Seyidovanın ssenarisi əsasında ərsəyə gələn “Kürən”i də qeyd etməliyəm. Bu film sifariş əsasında çəkilmişdi və çox bəyənilmişdi. Düzü, öz stilistikam var, canlı mövzular məni daha çox cəlb edir. Həm də diqqətinizə çatdırmaq istərdim ki, “Birlik” animasiya studiyası fəaliyyətini davam etdirir. Biz vaxtilə digər ölkələrdən də sifarişlər alırdıq. 2021-ci ildə studiya Azərbaycan Kinematoqrafçılar İttifaqı ilə birlikdə “Sərçə” filmini (rejissor Gülnar Əliyevanın diplom işi) çəkib. Studiyanın “Qarabağ nağılı” adlı layihəsi isə Mədəniyyət Nazirliyi tərəfindən keçirilən “Böyük Qayıdış” müsabiqəsinin qalibi olub. Film “Mənə nağıl söylə” adlı serialın ikinci seriyasıdır. Animasiya filminin birinci seriyası olan “Araqçın” 2020-ci ildə çəkilib və festivallarda uğur qazanıb. Amma bütün bunların fonunda mən “Naməlum torpaq” (1992) filmindən söz açmaq istərdim. 90-cı ilin 20 Yanvar hadisələrindən sonra mən belə bir filmin ərsəyə gəlməsinə qərar verdim. Çəkiliş qrupumuz kiçik idi. Sifarişlə çəkdiyimiz filmlərdən əldə etdiyimiz vəsaitlə 1991-ci ilin birinci yarısında rejissor Leyla Səfərova ilə birlikdə “Naməlum torpaq” filminin çəkilişlərinə başladıq. Bədii-publisistik sənədli filmdə Azərbaycan xalqının tarixi kökləri araşdırılır, sübut olunur ki, indiki Azərbaycan Respublikasının ərazisi azərbaycanlıların əbədi vətənidir və xalqımızın tarixi qədim olduğu kimi, mədəniyyəti də qədim və zəngindir. Film ərsəyə gələndə Rüstəm İbrahimbəyov onu Moskvada nümayiş etdirdi. Nümayiş zamanı ermənilər bərk narahat olmuş, təxribata əl atmışdılar. Bu gün ən böyük istəyim bu filmin ikinci hissəsinin ərsəyə gəlməsidir.

*– Vətən müharibəsindəki Qələbəmizi animasiya dili ilə uşaqlara necə təbliğ edə bilərik?*

– Biz şanlı Zəfərimizi yeni nəsillərə xeyirin şər üzərində qələbəsi kimi çatdırmalıyıq. Uşaqlara ağ-qara qüvvələr, qorxmazlıq, mübarizlik, mərdlik kimi xüsusiyyətlər aşılanmalıdır. Atalar övladlarına deməlidirlər ki, sən heç vaxt qara qüvvələrdən qorxma, əgər sən ədalətlisənsə, qara qüvvələrə hər zaman qalib gələcəksən...

*– Dövlət Rəssamlıq Akademiyasında tədrisə yeniliklər gətirmisiniz...*

– Buna görə uzun illər akademiyanın rektoru olmuş Ömər Eldarova təşəkkür edirəm. Onun sayəsində ADRA-nın Qrafika kafedrası nəzdində animasiya filmi üzrə quruluşçu rəssam ixtisası açıldı. Onlar bakalavr mərhələsini bitirirlər. Tələbələrimin əksəriyyəti kino sahəsində çalışırlar. Onlara bu sahənin bütün incəliklərini öyrədirəm. Tələbələrim filmi əvvəldən görürlər. Rejissor yaxşıdırsa, aktyor da yaxşı oynayacaq. Animasiyada əsas çəkə bilmək, görmək bacarığıdır. Rəssam varsa, animator tapmaq asan məsələdir. Son dövrlər animasiyada kompüter qrafikası geniş yer alıb.

Cizgi animasiyasının 3D animasiyadan üstünlüyü personajın xarakterinin tam dolğunluğu, bütün incəlikləri ilə açılmasıdır. Mən cizgi animasiyasının tərəfdarıyam. Oğlumsa 3D ilə işləyir. Əvvəllər animasiyaya peşəkarlar gəlirdi. Amma indi sanki hər kəs özü-özünə öyrənir. Bizdə peşəkar hazırlıq yoxdur. Bu gün istənilən adam həm animasiya, həm də film çəkə bilər.



Çünki müasir texnoloji yeniliklər buna imkan verir. Buna baxmayaraq, peşəkarlıq mütləqdir. Bu gün rejissor və rəssam işini bir arada görür, tələbələrimə də bunu öyrədirəm.

*– Bu sahə üzrə nələri təklif edirsiniz?*

– Mənim təklifim animasiya filmləri toplusunun yaradılmasıdır. Bu gün Azərbaycanda mövcud olan bütün studiyalarda cizgi filmlərinin istehsalı 3D animasiya proqramlarında aparılsa da, “Birlik” studiyası hazırladığı filmləri qrafik üsuldan istifadə etməklə yaradıb. Çünki bu, hər bir rejissorun öz bədii üslubunda işləməsinə imkan verir. Bunun sayəsində studiyamızın, demək olar ki, bütün filmləri beynəlxalq animasiya festivallarında iştirak edib və uğur qazanıb...

Təlim metodumun effektivliyini sübut etmək üçün tələbələrimin diplom işlərini “Birlik” studiyasında işləyib hazırlanmasını təklif etdim. Bu ideya akademiya rəhbərliyi tərəfindən bəyənildi. Diplom işi olan 1,5 dəqiqəlik “Sərçə” filmi üzərində studiyamızın bütün yaradıcı heyəti çalışıb. Film İtaliyanın Neapol şəhərində keçirilən Tələbələrin Beynəlxalq Kinofestivalının iştirakçısı oldu. Bu istiqamətdə fəaliyyətimizi davam etdirmək üçün maliyyə dəstəyi lazımdır. İldə 3-4 məzun buraxılır. Diplom işlərinin xronometrajı 2 dəqiqədən çox olmamalıdır. Maddi dəstək olarsa, 2-3 ildən sonra tələbələrimizin müəllif işlərindən ibarət animasiya filmləri toplusu yaranacaq. Bu gün əminəm ki, tələbələrim bu işi layiqincə davam etdirəcəklər.

*– Sizcə, filmlər festivala hesablanmalı, yoxsa yerli tamaşaçı auditoriyası üçün?*

– 3D və yaxşı keyfiyyətli animasiya filmləri kommersiya məqsədi daşıyır. Məsələn, “Maşa və Ayı” kimi. Bunu festivala göndərmək olmaz. Festival individual yanaşma istəyir. Buna görə də festival animasiyası əldə toxunan xalçaya bənzədilir. Müəllif işi olur. Sənət nümunəsi və kommersiya fərqlidir. Mən tələbələrimlə animasiyanı əl ilə işləməyi öyrədirəm. 3D cizgi filmlərinə fikri versəniz, onlarda hamının eyni göz, eyni sifət cizgiləri, baş verənlərə eyni reaksiyasını görəcəksiniz. Müəllif animasiyası mütləq inkişaf etməlidir. İstər animasiya, istərsə də bədii filmlər olsun, festivala gedən işlərin əksəriyyətində Azərbaycanımızı təbliğ edən nəcib niyyət yoxdur. Niyə gənclərimiz xalqımızı bu formada təqdim edirlər? Niyə hansısa xalq bizi belə tanımalıdır. Bizim axı istedadlı uşaqlarımız var. Əfsus ki, bizdə kino tənqidi yox dərəcəsindədir.

*– “Özümü ailəmlə birlikdə xoşbəxt hiss edirəm”, – deyirsiniz. Ailəniz Azərbaycan mədəniyyətinə böyük töhfələr verib. Sənətkar ailəsində doğulmaq nə deməkdir?*

– Atam 24 yaşında “Əməkdar artist” fəxri adı almışdı. Onun 14 kvadratlıq evi vardı. Bacımla mən bu evdə dünyaya gəlmişdik. Atam heç vaxt gileylənmirdi. Amma anamın təkidi və səyləri nəticəsində bizə “Sovetski” deyilən ərazidə ev verdilər. Maraqlıdır ki, atam vaxtilə elə burada dünyaya gəlmişdi. Ailəm həmişə orta səviyyədə yaşayıb. Atam 4 il deputat oldu və hamıya kömək etməyə çalışırdı. Anam Kübra xanım Əməkdar həkim idi. Atası Həbibullaxan Nəbibəyov 1910-cu ildən İran konsulu idi, 1932-ci ildə vəfat etmişdi. Anam çox gözəl qadın idi. Nə mən, nə də Gülşən anamıza, yox atamıza oxşamışıq. Hamletdən isə, əfsus ki, çox danışa bilmərəm. O, çox gözəl xarakterə malik idi. Heç kimə bənzəmirdi. Bir neçə dəfə bu haqda demişəm. Hamleti atamın 40 mərasimində ilk dəfə gördüm və o, atama necə oxşayırdı. Mən onun bu oxşarlığına mat qalmışdım. Bundan sonra biz tez-tez zəngləşir, görüşürdük. O, dünyasını dəyişənə qədər bizim əlaqələrimiz kəsilmədi.

***

Firəngiz xanım söhbətimizin bütün məqamlarında animasiya ilə bağlı düşüncələrini bölüşür. Hiss olunur ki, indinin dəbli 3D animasiyası ilə heç arası yoxdur. Klassik animasiyanın statusunu bərpa etmək onun əsas amalıdır.

“Mədəniyyət” qəzeti olaraq sənətkarı yubileyi münasibətilə təbrik edir, möhkəm cansağlığı, yeni yaradıcılıq ovqatlı illər arzulayırıq.

**Lalə Azəri**

## Xatirə təqvimi — 3–5 may

### Azərbaycan

**3 may 1857** – Yazıçı, tərcüməçi, teatrşünas Əsgər ağa Haqverdi bəy oğlu Gorani (Adıgözəlov; 1857-1910) Goranboy rayonunun Goran-Boyəhmədli kəndində doğulub. 1873-cü il martın 10-da milli peşəkar teatrın əsasını qoyan “Lənkəran xanının vəziri” tamaşasında baş rolu (Teymur ağa) oynayıb. “Qara yel” romanının müəllifidir.

**3 may 1938** – Xalq artisti Kamal Ağahüseyn oğlu Xudaverdiyev (1938 – 23.4.2008) Bakıda doğulub. Akademik Dram Teatrında çalışıb. “Atayevlər ailəsi”, “Alov” teletamaşalarında, “Dağlarda döyüş”, “Nəsimi” və s. filmlərdə yaddaqalan rollar oynayıb.

**3 may 1940** – Xalq artisti, rejissor Zülfüqar Qulu oğlu Abbasov (1940 – 1.4.2022) Gürcüstanda, Borçalı bölgəsinin Yuxarı Saral kəndində anadan olub. Qazax Dram Teatrında işləyib, Mingəçevir Dram Teatrının baş rejissoru və direktoru olub.

**4 may 1920** – Aşıq, şair Molla Cümə (1854-1920) vəfat edib. Şəki qəzasının Göynük mahalının Layisqi kəndində doğulub. Bəzi mənbələrə görə, aşıq Azərbaycan Xalq Cümhuriyyətinin qızğın tərəfdarı olduğu üçün öldürülüb.

**4 may 1931** – Əməkdar incəsənət xadimi, rəssam Ağarəhim Cəbrayıl oğlu Əliyev (1931 – 24.11.2009) anadan olub. Sənədli və bədii filmlərin quruluşçu rəssamı olub, teatr tamaşalarına səhnə tərtibatı verib.

**4 may 1934** – Opera və Balet Teatrında Reynqold Qliyerin “Şahsənəm” operasının ilk tamaşası (Şahsənəm rolunda Şövkət Məmmədova) olub.

**5 may 1856** – Azərbaycanın ilk maarifçi qadınlarından biri, milli mətbuatın banisi Həsən bəy Zərdabinin ömür-gün yoldaşı Hənifə Məlikova-Abayeva (1856-1929) Şimali Qafqazın Nalçik şəhərində anadan olub. 1901-ci ildə Bakıda H.Z.Tağıyevin himayəsi altında fəaliyyətə başlayan Müsəlman qızlar məktəbinin direktoru olub.

**5 may 1866** – Yazıçı-dramaturq Eynəli bəy Çölübəy oğlu Sultanov (1866-1935) Naxçıvanda doğulub. Naxçıvanda “Müsəlman incəsənəti və dram cəmiyyəti” yaradıcılarından olub. 1883-cü ildə cəmiyyət Naxçıvanda ilk teatr tamaşasını (“Müsyö Jordan və dərviş Məstəli şah”) səhnəyə qoyub.

**5 may 1892** – İstiqlal şairi Əhməd Cavad (Cavad Məhəmmədəli oğlu Axundzadə; 1892 – 13.10.1937) Şəmkir bölgəsinin Seyfəli kəndində doğulub. Dövlət himnimizin (“Azərbaycan marşı”, 1918) sözlərinin müəllifidir. V.Şekspirin “Otello”, “Romeo və Cülyetta” pyeslərini dilimizə çevirib. Repressiya qurbanıdır.

**5 may 1894** – Əməkdar artist Əhməd Anatollu (Əhməd Muxtar oğlu Səfərov; 1894 – 7.4.1973) Bakıda doğulub. Akademik Dram, Musiqili Komediya teatrlarının aktyoru olub.

**5 may 1899** – Əməkdar incəsənət xadimi, rəssam, qrafik Əmir Səhləli oğlu Hacıyev (1899-1972) Şuşada anadan olub. Azərbaycan yazıçılarının bir çox əsərlərinə illüstrasiyalar çəkib.

**5 may 1905** – Tanınmış ədəbiyyatşünas, şair, tərcüməçi Əkrəm Cəfər (Əkrəm Səftər oğlu Cəfərov; 1905 – 18.8.1991) İsmayıllı rayonunun Lahıc kəndində anadan olub.

**5 may 1908** – İlk azərbaycanlı qadın rejissor Qəmər Əliqulu qızı Salamzadə (1908-1994) anadan olub. Şair Əliqulu Qəmküsarın qızıdır. “Səbuhi” (1941) filminin rejissor assistenti olub.

**5 may 1909** – Yazıçı, tərcüməçi, jurnalist Məmməd Əkbər (Məhəmməd Həmzə oğlu Əkbərov; 1909-1974) Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində doğulub.

**5 may 1910** – SSRİ Xalq artisti, rejissor, aktyor Ədil Rza oğlu İsgəndərov (1910 – 18.9.1978) anadan olub. Milli Dram Teatrının baş rejissoru, “Azərbaycanfilm”in direktoru işləyib. “Uzaq sahillərdə”, “Qanun naminə”, “Dərviş Parisi partladır”, “Axırıncı aşırım” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb. “Əhməd haradadır?” filminə quruluş verib.

**5 may 1918** – Əməkdar elm xadimi, görkəmli ədəbiyyatşünas alim, Mirəli Seyidov (1918 – 26.4.1992) İrəvanda doğulub. “Azərbaycan mifik təfəkkürünün qaynaqları”, “Azərbaycan xalqının soykökünü düşünərkən” və s. kitabların müəllifidir.

**5 may 1920** – Rəssam, Əməkdar incəsənət xadimi Əbdülxalıq (Əbdülxalıq Əbdüləli oğlu Rzaquliyev; 1920 – 30.9.1988) Bakıda anadan olub.

**5 may 1920** – Şərqşünas, filologiya elmləri doktoru, Əməkdar elm xadimi Şamil Allahverdi oğlu Cəmşidov (1920 – 8.12.2008) Ağcabədi rayonunda anadan olub.

**5 may 1922** – Xalq artisti Ələddin Aslan oğlu Abbasov (1922 – 13.7.2014) Gəncədə doğulub. 1939-cu ildən Gəncə Dövlət Dram Teatrında çalışıb. “Dəli Kür”, “Qatır Məmməd”, “Nizami”, “Qətl günü” və s. filmlərdə çəkilib.

**5 may 1927** – Əməkdar incəsənət xadimi, qrafik-rəssam Bəyim Əzizbala qızı Hacızadə (1927-2017) Bakıda doğulub. Müxtəlif mövzularda linoqravüralar, “Xocalı” və s. əsərlərin müəllifidir.

**5 may 1928** – Bakıda Azərbaycan aşıqlarının I qurultayı keçirilib.

**5 may 1930** – Xanəndə, Xalq artisti Yaqub Məhəmməd oğlu Məmmədov (1930 – 5.7.2002) Ağcabədi rayonunda doğulub. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

**5 may 1930** – Tanınmış xanəndə Nəriman Mövsüm oğlu Əliyev (1930 – 28.4.1998) Bakıda doğulub. Bir çox məşhur muğam ifaçılarının ustad-müəllimi olub.

**5 may 1940** – Yazıçı-publisist, Əməkdar jurnalist Yusif Abbas oğlu Kərimov (1940-2018) Bərdədə anadan olub. Kitabları: “İtkilər və ümidlər”, “Qarabağ şikəstəsi”, “İşğal vadisi” və s.

**5 may 1940** – Şair, ədəbiyyatşünas Ağa Laçınlı (Ağa Əliqəmə oğlu Əliyev; 1940 - 25.11.2007) Laçın rayonunun Oğuldərə kəndində anadan olub.

**5 may 2021** – Xalq şairi, Dövlət mükafatı laureatı Fikrət Göyüş oğlu Qoca (25.8.1935 – 2021) vəfat edib. “Təkərlər geri fırlanır”, “Yaralı çiçəklər”, “Oddan keçənlər” və s. poemaların müəllifidir. Şeirlərinə populyar mahnılar bəstələnib. Yazıçılar Birliyinin birinci katibi olub.

### Dünya

**3 may 1910** – Rus şairi, yazıçı Olqa Berqols (1910-1975) anadan olub. 1941-1945-ci illər müharibəsində blokadada qalan Leninqradda fədakar yaradıcılıqla məşğul olub, “Leninqrad poeması”nı yazıb.

**4 may 1929** – İngilis aktrisası Odri Hepbern (Odri Ketlin Raston; 1929-1993) anadan olub. Filmləri: “Roma tətilləri” (şahzadə Anna), “Hərb və sülh” (Nataşa Rostova) və s.

**5 may 1846** – Polyak yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1905) laureatı Henrik Senkeviç (1846-1916) anadan olub. Əsərləri: “Quo vadis” (“Hara gedirsən?”), “Girdab”, “Polonetskilər ailəsi” və s.

**Hazırladı: V.Orxan**

## ATMU-nun nümayəndələri IMC Krems Universitetində təlimdə iştirak ediblər

Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) Beynəlxalq əlaqələr şöbəsinin Azərbaycan-Avstriya Turizm Proqramı (AATP) üzrə proqram əlaqələndiricisi Aytac Babayeva, mütəxəssis İranə Axundova və Keyfiyyət təminatı şöbəsinin bölmə rəhbəri Sara Bağırlı Avstriyanın IMC Krems Universitetində Erasmus+ layihəsi çərçivəsində keçirilən “International Staff Week” həftəsinin iştirakçısı olublar.

ATMU-dan bildirilib ki, təlim həftəsində Azərbaycandan başqa, Avropa ölkələri və tərəfdaş universitetlərin nümayəndələrinin də iştirakı ilə bilik və təcrübə mübadiləsi təşkil edilib. Ali təhsil sisteminin keyfiyyəti idarə olunması mövzusu diqqətdə saxlanılıb. IMC Krems Universitetinin akademik direktoru, pedaqoji heyət və department rəhbərləri tərəfindən “Ali təhsildə didaktika”, “Bakalavr və magistr işlərinə rəhbərlik və qiymətləndirmə”, “Tədqiqat işinin aparılması”, “AACSB-Akkreditasiya”, “Mübadilə proqramı çərçivəsində qəbul prosedurları” kimi mövzulardan bəhs olunub.

Təlimin sonunda universitetin icraçı direktoru professor Karl Ennsfellner tərəfindən “International Staff Week” iştirakçılarına sertifikat təqdim edilib.

Təlim iştirakçıları üçün mədəni turizm istiqamətli ekskursiyalar da təşkil olunub.

Qeyd edək ki, ATMU Avstriyanın IMC Krems Universiteti ilə 16 ildir AATP üzrə ikili diplom layihəsi çərçivəsində əməkdaşlıq edir.

# Bir vərəq 6,1 milyon dollara

## "Şah Təhmasibin "Şahnamə"si"nin illüstrasiyası hərracda satılıb

Şah I Təhmasibin dövründə ərsəyə gələn, Səfəvi miniatür sənətinin seçmə nümunələrinin və Firdovsinin "Şahnamə" əsərinə çəkilmiş ən məşhur miniatürlərin toplandığı illüstrasiyalı əlyazmalar toplusunun bir vərəqi "Sotheby" hərracında 6,1 milyon dollara satılıb.



Bu barədə hərracın İslam və Hindistan incəsənəti departamentinin direktoru Benedikt Karter məlumat verib. O qeyd edib ki, İran-Turan müharibəsinin rəsmini əks etdirən bu qiymətli nümunə auksionda ən çox təklif alanlar sırasında olub. O əlavə edib ki, bu illüstrasiyalı vərəq dünyanın Orta əsrlərə aid ən nadir əsərlərindən biridir. Unikal nümunə 1658-ci ildə Şah İsmayılın oğlu Şah Təhmasib tərəfindən Osmanlı Sultanı II Səlimə hədiyyə edilib.

Hərracda, həmçinin XVII-XVIII əsrlərə aid Yaxın Şərq, Şimali Afrika, Türkiyə, İran, Hindistan və Cənubi Asiyadan müxtəlif İslam əsərləri də satılıb.

B.Karter bildirib ki, ümumilikdə 135 əsər kolleksiyaçıları tərəfindən alınıb. Onların arasında Osmanlı imperiyası zamanında – XVII-XIX-əsrlərdə məşhur müsəlman xəttatları tərəfindən yazılmış Qurani-Kərimin nadir nümunələri də var. Osmanlı sultanlarının XVII əsrə aid qızıl naxışlı xəncəri 254 min funt-sterlinqə, həmin əsrdə hazırlanan "Qızıl buynuz" vazası 126 min dollara, müxtəlif geyim, keramika, metal əşyalar və rəsm əsərləri ümumilikdə 15,7 milyon dollara satılıb.

B.Karter vurğulayıb ki, son illər hərracda İslam əsərləri və irs nümunələrinə tələbat xeyli artıb. Kolleksiyaçılar onların nadir olmasına xüsusi əhəmiyyət verirlər. Ən çox tələbat isə Qurani-Kərimin müxtəlif əsrlərdə xəttatlar tərəfindən yazılmış nümunələridir.

Şah I Təhmasib (1514-1576) Azərbaycan Səfəvilər dövlətinin qurucusu I Şah İsmayılın böyük oğlu və ikinci Səfəvi hökmdarıdır. O, atasının ölümündən sonra (1524) 10 yaşında taxta çıxıb və Səfəvi şahları içərisində ən uzun müddət – 52 il hökmranlıq edib.

I Şah Təhmasib mədəniyyət və incəsənətin hamisi kimi də tanınıb. Təbriz miniatür və xəttatlıq məktəbləri ən yüksək inkişaf mərhələsinə onun dövründə çatmışdı. Şahın sifarişi ilə dövrün məşhur rəssam və xəttatları tərəfindən "Şah Təhmasibin "Şahnamə"si" əlyazma toplusu üzərində işlər 1540-cı illərin ortalarında tamamlanmışdı. Bundan əlavə, onun göstərişi ilə 1539-1543-cü illər arasında Nizaminin "Xəmsə"sinə xüsusi zövqlə miniatürlər çəkilmişdi.

# Azərbaycanın turizm imkanları "ATM Dubai" sərgisində




Azərbaycan Turizm Bürosu mayın 1-dən 4-dək Birləşmiş Ərəb Əmirliklərində keçirilən "ATM Dubai – 2023" (Arabian Travel Market – 2023) beynəlxalq turizm və səyahət sərgisində milli stendlə təmsil olunur.

Dövlət Turizm Agentliyindən bildirilib ki, sərgidə Azərbaycan Turizm Bürosu ilə yanaşı, "Azərbaycan Hava Yolları" QSC, habelə ölkəmizin 31 turizm və qonaqpərvərlik sənayesi nümayəndəsi iştirak edir.

Ziyarətçilərə Azərbaycanın tarixi, adət-ənənələri, mədəni irsi, milli mətbəx nümunələri, sağlamlıq və ekoturizm potensialı haqqında ətraflı məlumat verilir. Sərgi çərçivəsində müxtəlif ölkələrin turizm şirkətləri ilə B2B formatlı görüşlər keçirilir, əməkdaşlıq imkanları müzakirə olunur.

Sərginin ilk günü Azərbaycanın Dubay şəhərində baş konsulu Cavidan Hüseynov stendimizi ziyarət edib.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid sərgidə iştirak edən Səudiyyə Ərəbistanının "Flyadeal" aviaşirkətinin baş icraçı direktoru Con Korfiatislə görüşüb. Görüş zamanı əməkdaşlıq əlaqələri, qarşılıqlı turist axınına təkan verəcək marketinq və kommunikasiya istiqamətlərində birgə fəaliyyət, yay aylarında həyata keçiriləcək birbaşa uçuşlar və digər məsələlər müzakirə olunub.

Qeyd edək ki, 2022-ci ildə Birləşmiş Ərəb Əmirlikləri Azərbaycana səfər edən vətəndaşlarının sayı ilə Körfəz ölkələri arasında ikinci yeri tutub. Ötən il Yaxın Şərq ölkələrindən Azərbaycana gələn 228 mindən çox əcnəbinin 18 faizini BƏƏ vətəndaşları təşkil edib.

# Türkiyənin ilk milli qırıcısı "KAAN" olacaq

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yerli istehsal olan ilk qırıcı təyyarənin adını açıqlayıb.




Mayın 1-də Ankaranın Kahramankazan rayonundakı TUSAŞ aerokosmik mərkəzində çıxış edən dövlət başçısı müasir layihələrin həyata keçirilməsi sayəsində Türkiyənin müdafiə sənayesinin bütün sahələrində – dənizdə, quruda və havada təmsil olunmasının qürur mənbəyi olduğunu qeyd edib.

Tədbir çərçivəsində Türkiyənin aviasiya sənayesinin son nailiyyətləri, o cümlədən HÜRJET təyyarəsi, ATAK-2 helikopteri, zərbəçi ANKA-3 uçan pilotsuz aparatı və beşinci nəsil qırıcı təyyarəsi nümayiş olunub. Ərdoğan bildirib ki, Türkiyənin qırıcı təyyarəsi KAAN adlanacaq. O qeyd edib ki, KAAN yaxın beş ildə səmaya qalxacaq və Türkiyə Hərbi-Hava Qüvvələrinin (HHQ) sərəncamına veriləcək. "KAAN-ın istifadəyə verilməsi ilə Türkiyə beşinci nəsil qırıcı təyyarə istehsal edən ilk beş ölkənin sırasına daxil olacaq.

Türkiyənin MMU (digər adı TF-X/ Turkish Fighter Experimental) perspektivli beşinci nəsil qırıcı təyyarəsi bu ölkədə texnologiyanın inkişafı sahəsində mühüm layihə sayılır və "Türk Havacılık ve Uzay Sanayi AŞ" (TUSAŞ) aerokosmik kompaniyası tərəfindən həyata keçirilir.

Onun dizaynının ilk variantları hələ 2013-cü ilin mayında İstanbulda beynəlxalq sərgidə təqdim olunub. İlkin hesablamalara görə, təyyarənin hazırlanması proqramı 10 milyard dollara başa gələcək.

İstehsalçı kompaniyanın planlarına əsasən, təyyarənin ilk uçuşları 2025-2026-cı illərdə yerinə yetiriləcək. 2028-ci ildən sonra qırıcı təyyarələr Türkiyə HHQ arsenalına daxil ediləcək.

Türkiyənin Milli Müdafiə Nazirliyində hesab edirlər ki, yerli təyyarələr 2030-cu ildə HHQ-nin istismarından çıxarılacaq Amerika istehsalı olan F-16 qırıcılarını əvəz edəcək.




## Olaylar, faktlar (2 – 5 may)

### 155 il əvvəl...

**2 may 1868-ci ildə** çar Rusiyasının işğalçı qoşunları Səmərqəndə daxil olublar. Bölgəyə nəzarət edən Buxara xanı Səmərqəndi Rusiyaya güzəştə getdi, indiki Özbəkistanın bir hissəsi Rusiya imperiyasına birləşdirildi.

### 104 il əvvəl...



**5 may 1919-cu ildə** İsveçrədə Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Liqası təsis edilib. Hazırda Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası adı altında fəaliyyət göstərir. Mənzil-qərargahı Cenevrə şəhərindədir.

### 103 il əvvəl...

**5 may 1920-ci ildə** Azərbaycanda bolşevik hökuməti – Müvəqqəti İnqilab Komitəsi bütün xan, bəy və vəqf torpaqlarının müsadirə olunaraq əvəzi ödənilmədən kəndlilərin istifadəsinə verilməsi barədə qərar qəbul edib. Üstündən bir neçə il ötəndən sonra həmin torpaqlar kəndlilərdən zorla geri alınaraq kolxoz təsərrüfatlarına verildi.

### 74 il əvvəl...

**5 may 1949-cu ildə** Avropa qitəsinin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatı – Avropa Şurası yaradılıb. Londonda keçirilən mərasimdə təşkilatın nizamnaməsini 10 dövlət – Böyük Britaniya, Fransa, İtaliya, Belçika, Danimarka, İrlandiya, Lüksemburq, Niderland, Norveç, İsveç imzalayıb. Sonrakı illərdə təşkilatın sıraları genişlənib. Hazırda üzv sayı (2022-ci ildə Rusiya təşkilatdan çıxandan sonra) 46-dır. Azərbaycan Avropa Şurası üzvlüyünə 2001-ci il 25 yanvarda qəbul olunub. Təşkilatın mənzil-qərargahı Fransanın Almaniya ilə sərhəddəki Strasburq şəhərindədir. Bu şəhər II Dünya müharibəsindən sonra iki ölkə arasında barışığın simvolu kimi məxsusi olaraq seçilib.



### 32 il əvvəl...

**3 may 1991-ci ildə** Namibiyada keçirilən beynəlxalq forumda dünya dövlətlərinin rəhbərlərini mətbuat azadlığını təmin etməyə çağıran "Vikhduk Bəyannaməsi" imzalanıb. BMT Baş Assambleyasının 21 dekabr 1993-cü il tarixli qərarına əsasən, hər il mayın 3-ü "Dünya mətbuat azadlığı günü" kimi qeyd olunur.

### 7 il əvvəl...



**5 may 2016-cı ildə** Prezident İlham Əliyev "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında sərəncam imzalayıb. Dövlət başçısının 25 noyabr 2016-cı il tarixli sərəncamı ilə 5 may Azərbaycanda "Xalçaçı günü" peşə bayramı kimi təsis edilib.

**Hazırladı: V.Orxan**

# "Kremerata Baltika" Bakıda növbəti konsertini verəcək

İyunun 9-da Heydər Əliyev Mərkəzində "Kremerata Baltika" Kamera Orkestrinin konserti olacaq.




"Kremerata Baltika" ilk dəfə geniş auditoriyaya 1997-ci ildə Avstriyanın "Lokenhaus" festivalında orkestrin direktoru, tanınmış skripka ifaçısı Gidon Kremer tərəfindən təqdim olunub. Orkestrdə Latviya, Litva və Estoniyadan olan istedadlı gənc musiqiçilər ifa edirlər. Kollektivi yaradarkən maestro gənc həmkarları ilə zəngin təcrübəsini bölüşmək məqsədi güdürdü. İlkin mərhələdə fəaliyyəti uzunmüddətli təhsil layihəsi kimi nəzərdə tutulan gənc kollektiv qısa zamanda tədris prosesi çərçivəsindən çıxaraq Avropanın məşhur və konsertləri böyük maraqla gözlənilən orkestrləri sırasına daxil olub.

"Kremerata Baltika" dünyanın 50-dən çox ölkəsində mindən çox konsert proqramı ilə çıxış edib. 20-dən çox CD yazıb, 2002-ci ildə isə "Qremmi" mükafatına layiq görülüb.

Bakı konsertinin solistləri Litva "Kremerata"sının yaradıcısı, skripka ifaçısı Dzeraldas Bidva və tanınmış violonçel ifaçısı, bir çox müsabiqələrin laureatı Giedre Dirnavauskaitedir.

Konsertdə Azərbaycanın Əməkdar artisti Fuad İbrahimovun rəhbərliyi ilə Bakı Kamera Orkestri də çıxış edəcək. Azərbaycanlı dirijoru "Kremerata Baltika" ilə yaradıcı dostluq bağlayır. O, mütəmadi olaraq müxtəlif festivallarda bu orkestrlə çıxış edir.

2021-ci ilin sentyabrında Latviyanın Yurmala şəhərində 18-ci Kremerata Baltika festivalında Fuad İbrahimovun rəhbərliyi ilə konsert proqramı təqdim olunmuşdu. Proqramda Fikrət Əmirovun "Nizami" simfoniyası da səslənmişdi.

"Kremerata Baltika"nın 2021-ci ilin noyabrında Heydər Əliyev Mərkəzindəki konsertinə də Fuad İbrahimov dirijorluq etmişdi. "Nizami Gəncəvi İli" çərçivəsində təşkil edilən proqramda F.Şopen, F.Mendelson, F.Əmirov və digər bəstəkarların əsərləri yer almışdı.

# "Avroviziya – 2023"ə doğru son bir həftə

## 9 mayda çıxış edəcək "TuralTuranX" dueti Liverpul səhnəsində məşqlərə başlayıb

Böyük Britaniyanın Liverpul şəhərində keçiriləcək "Avroviziya – 2023" beynəlxalq mahnı yarışmasına sayılı günlər qalıb. Müsabiqə öncəsi son həftə iştirakçıların əsas səhnədə məşqləri keçirilir.

"Avroviziya – 2023"də Azərbaycanı təmsil edəcək "TuralTuranX" dueti də artıq Liverpul şəhərindədir. Tural və Turan Bağmanov qardaşları səhnə məşqlərinə başlayıblar.

Xatırladaq ki, "Avroviziya – 2023"ün yarımfinalları 9 və 11 mayda, finalı isə 13 mayda keçiriləcək. Təmsilçilərimiz birinci yarımfinalda 12-ci nömrə altında çıxış edəcəklər. Duet "Tell me more" ("Mənə daha çox danış") mahnısını ifa edəcək. Mahnını qardaşlar özləri bəstələyiblər.



Müsabiqə İctimai Televiziyada yayımlanacaq. "Avroviziya"nın yeni qaydalarına əsasən, müsabiqədə iştirak etməyən ölkələr də bu il səsverməyə qatıla biləcəklər. Ölkəmizlə yanaşı, birinci yarımfinalda Xorvatiya, İrlandiya, Latviya, Malta, Norveç, Portuqaliya, Serbiya, Çexiya, Finlandiya, İsrail, Moldova, Niderland, İsveç, İsveçrə də yer alıb.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti Firəngiz Əlizadə və ittifaqın kollektivi Zemfira Qafarova və Rəna İsmayılovaya əzizləri

**Fariz Nəcəfovun**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

**MƏDƏNİYYƏT**

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5044. **Sifariş:** 1124
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641